Günəş Şərqdən doğur!

❒ № 103 (5384), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 12 iyun 2021-ci il (şənbə)



## Bakı metrosu iyunda hər gün işləyəcək

Gecə saat 02:00-a qədər metropoliten sərnişindaşıma fəaliyyəti göstərəcək

(Səh.9)



## Prezident İlham Əliyev Putinə təbrik məktubu ünvanlayıb

İlham Əliyev: Azərbaycan ilə Rusiya arasında münasibətlərin dinamik və uğurlu inkişafı xüsusi məmnunluq doğurur

Azərbaycan ilə Rusiya arasında möhkəm dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək ənənələrinə əsaslanan münasibətlərin dinamik və uğurlu inkişafı xüsusi məmnunluq doğurur.

(səh.2)

## Cəhdin hər ikisi də rədd edilib



XİN: Azərbaycan Avropa Məhkəməsinin 11 erməni diversantla bağlı qərarını alqışlayır

(səh.2)

# Kəlbəcərdə atəş səsləri...



## Düşmən diqqəti Zəngəzur istiqamətindən yayındırmağa çalışır

(səh.8)

# Şuşada Böyük Türk müqaviləsi imzalana bilər

## Azərbaycanda Türkiyə hərbi bazalarının yaradılması mümkündür




(səh.7)

✓ **Parlamentdən xalqın səsi eşidilməyə başladı**

Deputatlar ilk dəfə kütləvi şəkildə qanuna etiraz etdilər (səh.3)

✓ **Bir saatdan artıq tədbir olmayacaq**

Məktəblərdə “Son zəng”in keçirilməsi qaydası məlum oldu (səh.8)

✓ **Nəhayyət koronavirusdan ölüm halı olmadı**

73 yeni yoluxma faktı qeydə alınıb, 287 nəfər sağalıb (səh.9)

✓ **TƏKRAR HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR** (səh.15)

# Prezident İlham Əliyev Putinə təbrik məktubu ünvanlayıb

## İlham Əliyev: Azərbaycan ilə Rusiya arasında münasibətlərin dinamik və uğurlu inkişafı xüsusi məmnunluq doğurur

Azərbaycan ilə Rusiya arasında möhkəm dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək ənənələrinə əsaslanan münasibətlərin dinamik və uğurlu inkişafı xüsusi məmnunluq doğurur. Ölkələrimizin ən geniş məsələlər spektrinə dair konstruktiv ikitərəfli dialoqunu və səmərəli əməkdaşlığını da qeyd etmək istərdim.



Bu fikirlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Günü münasibətilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə təbrik məktubunda yer alıb.

**Məktubda deyilir:** "Dövlət bayramınız - Rusiya Günü münasibətilə Sizi və Sizin şəxsinizdə dost Rusiyanın bütün xalqını ürəkdən təbrik edirəm.

Rusiya Federasiyası dövlət quruculuğu, davamlı sosial-iqtisadi inkişaf və ictimai həyatın bütün sahələrinin modernləşdirilməsi üçün böyük yol keçib və bu işdə sanballı uğurlar qazanıb. Bu gün Sizin ölkəniz dünyada gedən proseslərin nüfuzlu iştirakçısı kimi aktual çağırışlara və təhdidlərə qarşı mübarizədə mühüm məsələlər həll edir, qlobal və regional sülhün, təhlükəsizliyin dəstəklənməsinə sanballı töhfə verir".

Azərbaycan ilə Rusiya arasında möhkəm dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək ənənələrinə əsaslanan münasibətlərin dinamik və uğurlu inkişafının xüsusi məmnunluq doğurduğunu vurğulayan dövlətimizin başçısı 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatların əldə edilməsində və həyata keçirilməsində Rusiya Federasiyasının vasitəçilik səylərini yüksək qiymətləndirib.

"İnanıram ki, Azərbaycan-Rusiya strateji tərəfdaşlığı və çoxplanlı qarşılıqlı fəaliyyəti bundan sonra da səmərəli inkişaf edəcək və dərinləşəcək, xalqlarımızın və ölkələrimizin rifahı, regionda sabitliyin, əməkdaşlığın və tərəqqinin təmin edilməsi naminə yeni məzmun kəsb edəcək", - deyə təbrik məktubunda qeyd olunur.

## Prezident və birinci xanım Mehriban Əliyeva Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirillə başsağlığı veriblər



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandrın vəfatı ilə əlaqədar Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirillə başsağlığı veriblər.**

Dövlətimizin başçısı və birinci xanım Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandrın vəfatı barədə xəbərin onları dərindən kədərləndirdiyini bildiriblər.

Başsağlığı məktubunda deyilir: "Arxiyepiskop Aleksandrın fədakar əməyi, parlaq vaizlik istedadı, Azərbaycan-Rusiya dostluğunun, konfessiyalararası həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsinə böyük şəxsi töhfəsi ona haqlı olaraq müxtəlif millətlərin və dini etiqadların nümayəndələri arasında dərin hörmət qazandırmışdır. Onun xatirəsi qəlbimizdə daim yaşayacaq".

## Minsk Qrupu həmsədrlərinin fəaliyyəti müzakirə edilib

**Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko Fransa səfir Pyer Levini qəbul edib.**

APA-nın xəbərinə görə, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin (XİN) saytında məlumat verilib.

Görüşdə diplomatlar ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyəti kontekstində Dağlıq Qarabağ nizamlanması ətrafında vəziyyətlə bağlı ətraflı fikir mübadiləsi apardılar.

*Eyni zamanda, tərəflər MDB məkanındakı digər aktual məsələləri də müzakirə ediblər.*

## ATƏT-in sədri çağırış edib

### Ermənistanla Azərbaycan arasında gərginliyin azalması və dialoqa başlaması lazımdır

**Ermənistanla Azərbaycan arasındakı sərhəddə mövcud gərginliyin artması, həll olunmamış məsələlərin beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi bir problem olaraq qaldığını göstərir.**



Trend-in Rusiya KİV-lərinə istinadən verdiyi məlumata görə, bunu ATƏT-in sədri, İsveç Xarici İşlər naziri Ann Linde ABŞ Konqresi yanında Avropada Təhlükəsizlik və Əməkdaşlıq Komissiyasının (Helsinki Komissiyası) dinləmələrində video bağlantı vasitəsi ilə çıxış edərkən bildirib.

**A.Linde qeyd edib:** "Beynəlxalq hüquqa uyğun olaraq davamlı siyasi həll üzrə danışıqları bərpa etmək, humanitar ehtiyacları və insan hüquqları məsələlərini həll etmək üçün tərəflər arasında gərginliyin azaldılması və dialoqun başlaması lazımdır".

*ATƏT-in sədri Rusiya, ABŞ və Fransanın təmsil etdiyi həmsədrlərlə ATƏT-in Minsk Qrupunun bu məsələlərin həlli üçün ən yaxşı format olduğuna əmin olduğunu bildirib.*

# Cəhdin hər ikisi də rədd edilib

## XİN: Azərbaycan Avropa Məhkəməsinin 11 erməni diversantla bağlı qərarını alqışlayır



**"Azərbaycan hökuməti İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (İHAM) Ermənistanın hazırda Azərbaycanda saxlanılan 11 vətəndaşının dərhal sərbəst buraxılması tələbini rədd edən qərarını alqışlayır".**

"Şərq"in məlumatına görə, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bildirib.

Onun sözlərinə görə, Ermənistan tərəfindən Məhkəmə Reqlamentinin 39-cu Qaydasına istinad edilərək saxlanılan şəxslərin sərbəst buraxılması üçün iki dəfə cəhd göstərilib, hər ikisi rədd edilib: "Ermənistanın müraciəti Azərbaycanın beynəlxalq qanunlarla təsbit olunmuş, ölkənin daxili qanunvericiliyini və beynəlxalq hüququ pozan, habelə ağır hərbi cinayətlər törətməkdə şübhəli bilinən şəxslərin cinayət təqibinə dair hüquq və öhdəliklərini göz ardına alır. İHAM-ın qərarı məhz bu hüququ vurğulayır".

**L.Abdullayevla deyib ki, Ermənistanın saxlanılan şəxslərin dərhal sərbəst buraxılması ilə bağlı müraciəti Azərbaycan hökumətinin qanunun aliliyini hörmətsizlik çağırışına bərabərdir:** "Biz sözügedən prinsiplərə sadiq qalırıq və İHAM-in da qəbul etdiyi kimi cinayət təqibi başa çatana qədər bu şəxslər həbsdə saxlanılacaq".

"Bildiyiniz kimi, Ermənistanın dərhal sərbəst buraxılmasını tələb etdiyi şəxslərdən ikisi - Lüdviq Mkrtçyan və Alyoşa Xosrovyan Azərbaycan vətəndaşlarına işgəncə verməkdə təqsirləndirilərək hazırda məhkəmə istintaqına cəlb olunublar. Azərbaycan öz hüquq və öhdəliklərinə uyğun olaraq beynəlxalq və daxili hüququn müəyyən olunmuş prinsiplərinə riayət etməyə və bu təqibi başa çatdırmağa sadiqdir. Onu da qeyd etmək istərdik ki, Azərbaycan bu şəxslərin vəziyyəti ilə bağlı olan bütün tələbləri yerinə yetirib. Beynəlxalq Qırmızı Xaç Komitəsi, habelə İnsan Haqları üzrə Müvəkkilin (Ombudsman) həbs olunmuş şəxslərlə görüşləri təşkil edilib və mayın 27-də Azərbaycan hərbçiləri tərəfindən saxlanılan 6 hərbçi də daxil olmaqla sözügedən həbsdə olan şəxslərin səhhəti barədə tibbi sənədlər təqdim edilib", - XİN sözçüsü vurğulayıb.

**İsmayıl**



## Ağsu şəhər İcra Hakimiyyəti başçısının müavini işdən çıxarılıb

**Ağsu şəhər İcra Hakimiyyətinin başçısının müavini, sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Orucov Mirqubat Oruc oğlu tutduğu vəzifədən azad edilib.**

"Report"un məlumatına görə, bununla bağlı Ağsu şəhər İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov müvafiq əmr imzalayıb.

*Onun yerinə hələlik təyinat yoxdur.*

## NATO ölkələrinin hərbi xərcləri daha da artacaq



**NATO üzvü olan 30 ölkənin məcmu müdafiə məsrəfləri cari ildə 4,1 faiz artaraq 1 trilyon ABŞ dolları həddini keçəcək.**

"Report" xəbər verir ki, bu barədə NATO üzv ölkələrinin 2014-2021-ci illər ərzində müdafiə məsrəflərinə dair hesabatında bildirilir.

Hesabata görə 2020-ci ildə üzv ölkələrin məcmu müdafiə məsrəfləri 3,5 faiz artaraq 1.027 milyard dollar təşkil edib.

Bu il 30 üzv ölkənin 10-u müdafiə məqsədlərinə ÜDM-nin 2 faizindən artığını sərf edəcək. O cümlədən Yunanıstanda bu rəqəm 3,82 faiz, ABŞ-da 3,52 faiz təşkil edəcək. 30 üzv ölkənin məcmu müdafiə məsrəflərinin cari ildə 1,05 trilyon dollar təşkil edəcəyi gözlənilir.



# Parlamentdən xalqın səsi eşidilməyə başladı

## Deputatlar ilk dəfə kütləvi şəkildə qanuna etiraz etdilər

*Dünən Milli Məclisin növbədənkənar sessiyasının növbəti plenar iclası keçirilib. 9 məsələnin daxil edildiyi gündəlikdə əsas müzakirələr "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanuna təklif edilən dəyişikliklər ətrafında gedib. Cari məsələlərlə bağlı çıxışdan öncə Milli Məclisin sədri Sahibə Qafarova Milli Qurtuluş Günü münasibətilə Azərbaycan xalqını təbrik edib.*

Spiker bildirib ki, iclas Azərbaycan Respublikasının tarixində dönüş yaratmış bayram ərəfəsində keçirilir: ”1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə Heydər Əliyevin siyasi rəhbərliyə qaytarılması xalqımızı uçurumun bir addımlığından geri qaytardı. Ümummilli liderimizin o dövrdəki fəaliyyətinin mahiyyəti böyükdür. Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti xalqın yolunda hər cür fədakarlığa hazır olmaq nümunəsidir. Müasir Azərbaycan Respublikası Heydər Əliyev dühasının məhsuludur. Ulu öndər Heydər Əliyevin davamçısı olan İlham Əliyevin yürütdüyü siyasət nəticəsində 30 il işğaldan sonra ərazi bütövlüyümüz təmin edildi. Bu, Cənubi Qafqazda yeni reallıq yaradıb. Bu gün Azərbaycan böyük coğrafiyada söz sahibi olan dövlətdir. Milli Qurtuluş Günü münasibətilə bütün xalqımızı təbrik edirəm”.

**“Saxta əlilliyi alanla bərabər saxta əlilliyi verənlə bağlı qanunda olan maddə işləmir”**

**Millət vəkili Əli Məsimli deyib ki, yaxşı olardı ki, əlilliyin meyarları ilə bağlı qərarlar deputatlara verilərdi, sonra bu dəyişikliklər müzakirə olunardı:** ”İlk baxışda bu, forma dəyişikliyi kimi görünsə də, model dəyişikliyidir. Burada 31-60 faiz heç də 3-cü kateqoriyaya, 61-80 faiz ikinci kateqoriyaya aid olmadığı üçün bu qanunun tətbiqi zamanı problemlər əmələ gələcək. Əlillik ətrafında yaranan sosial narazılıqları aradan qaldırmaq üçün bir sıra əlavə dəyişikliklər edilməlidir. Əlilliyin müdafiəsinə dair qanunda işləməyən maddələr var. Qanun 3 ildir qəbul olunub. İşləməyən maddələri işlək hala salmaq üçün addımlar atılmalıdır. Əlillərin işlə təmin edilməsini, xüsusilə də hər cəhətdən borclu olduğumuz Qarabağ qazilərinin və şəhid ailələrinin işlə təmin edilməsini həyata keçirməliyik. Saxta əlilliklə bağlı rəqəmlər onu göstərir ki, nazirliyin özündə də bu məsələ ilə bağlı tam təfəkkür yoxdur. Saxta əlilliyi alanla bərabər saxta əlilliyi verənlə bağlı qanunda olan maddə də işləmir. Üçüncüsü, saxta əlillik ləğv olunan zaman xeyli əlilliyə haqqı olan insanların haqqı tapdalanıb. Bunun cavabını kim verəcək?! Bu məsuliyyət məsələsi də həllini tapmalıdır. Həmin insanların hüquqlarının müdafiəsi üçün onları bu vəziyyətə məhkum edən insanlar məsuliyyətə cəlb olunmalıdır”.

**“İxracatın dəstəklənməsi üçün yeni kreditlərin tətbiq edilməsinə ehtiyac var”**

**Deputat Elşad Mirbəşiroğlu bildirib ki, Vətən müharibəsində inamlı qələbəmiz ölkə iqtisadiyyatının dayanıqlılığını növbəti dəfə göstərmiş oldu:** “Ölkənin yeni çağırışlar qarşısında olduğu şübhəsizdir. Bunun üçün də milli inkişafın yeni prioritetləri müəyyənləşdirilib. 2 fevral tarixində prezident tərəfindən ”Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədi təsdiq edilib. Bu sənəd çərçivəsində ixrac potensialının gücləndirilməsi təklif olunub. Ölkənin iqtisadi artım potensialı daha ciddi addımların atılmasını zəruri edir. Azərbaycan brendinin dünyada tanıdılması əsas məsələlərdən biridir. Azərbaycanda ixracatın dəstəklənməsi üçün yeni kreditlərin tətbiq edilməsinə ehtiyac var. Təklif edirəm ki, aidiyyəti qurumlar Azərbaycanda ixracat qurumlarının inkişafı sahəsində addımlar atsınlar. Gələcəkdə Azərbaycanın beynəlxalq əməkdaşlığı üçün bu çox vacibdir”.

> **“Saxta əlillik ləğv olunan zaman xeyli əlilliyə haqqı olan insanların haqqı tapdalanıb”**

**“Sahibkarlar şəhid ailələrini və qaziləri işə götürsünlər”**

**Deputat Musa Quliyev deyib ki, sahibkarları şəhid ailələrini və qaziləri işə götürməyə çağırıb:** ”Məşğulluq marafonu başlayıb. Burada məqsəd 44 günlük Vətən müharibəsi qaziləri və şəhid ailələrinin məşğulluğunu təmin etməkdir. Bu gün Azərbaycanda büdcədən maliyyələşən 3700-dən çox təşkilat fəaliyyət göstərir. Bu müəssisələrdən hər biri ən azı 2-3 şəhid ailəsi üzvlərini və qaziləri işə götürərsə, biz bu missiyanı tamamlaya bilərik. Mən Azərbaycandakı sahibkarlara, Azərbaycan-Amerika ticarət palatasına, Azərbaycanda fəaliyyət göstərən Türkiyə şirkətlərinə, özəl şirkətlərə müraciət edirəm. Biz bu missiyanı həyata keçirsək, dünyaya da bəyan edəcəyik ki, Azərbaycan dövləti, vətəndaşı şəhidinin, qazisinin yanındadır. Hamını bu marafona qoşulmağa dəvət edirəm”.

**“Əlilliyin qiymətləndirilməsi bir orqana həvalə olunsun”**

**Deputat Bəhruz Məhərrəmov əlilliyin qiymətləndirilməsinin bir orqana həvalə olunmasını təklif edib.** O bildirib ki, bu sahədə inzibati və cinayət tədbirlərini də sərtləşdirməliyik: ”Bununla da saxta əlilliyi alana da, verənə də qarşı ciddi tədbirlər görülmüş olar. Digər tərəfdən Prezident İlham Əliyevin sərəncamı ilə icra hakimiyyəti orqanlarında Vətən müharibəsi qəhrəmanları ilə bağlı şöbə yaradıldı. Bu, digər şirkətlər üçün də yol xəritəsi olmalıdır”.

**“Beynəlxalq standart adı ilə əhalini narazı salmaq olmaz”**

**Millət vəkili Sabir Rüstəmxanlı vurğulayıb ki, dəyişikliklər sosial narazılıqların artmasına səbəb olmamalıdır:** ”Bu, çox həssas məsələdir, son dərəcə ciddi məsuliyyətlə yanaşılmalıdır. 44 günlük Vətən müharibəsindən yüksək əhval-ruhiyyə ilə çıxmış xalqı narazı salmaq, cəmiyyətdə narazılıq dalğasını gücləndirmək yolverilməzdir. Birinci oxunuşda deputatların səsləndirdiyi fikirlərin heç biri nəzərə alınmayıb. Ölkədə ən mübahisəli, xalqı narazı salan sahələrdən biri sosial yardımların paylanma məsələsidir. Bununla bağlı nələr baş verir, yaxşı bilirik. Kasıb, bir tikə çörəyə möhtac insanların kartlarının vəzifə sahibi olanların ciblərində yığılıb qaldığının da şahidi oluruq. Mən bilmirəm, bizim vətəndaşlarımız bundan udacaq, ya uduzacaq. Elə deyilir ki, qanun beynəlxalq standartlara uyğundur. Qanunun lehinə səs vermək çətindir. Bu məsələdə biz istəsək də, istəməsək də, insanlarda bir narazılıq yaranacaq. Çünki uzun illər eyni sistemlə pensiya almış insanlar yeni sistemlə qarşılaşacaq. Nazirlik dəyişikliklərə aydınlıq gətirməlidir. Dəyişikliklərin nə qədər insanı əhatə etdiyi deyilməlidir. Televiziyalar vasitəsilə camaata dəyişikliyin mahiyyəti çatdırılmalıdır. Bu cür qanunlar qəbul edilərkən Azərbaycanın vəziyyəti nəzərə alınmalıdır. Beynəlxalq standart adı ilə əhalini narazı salmaq olmaz, indiki məqamda ümumiyyətlə olmaz. İndiki mərhələdə təqaüdlərin müəyyənləşməsində obyektivlik tətbiq etmək mümkündür. Amma bu, son dərəcə həssaslıqla olmalıdır. Qanundan sonrakı nəticələr, faiz məsələsinin nə olması, hansı qurumlar tərəfindən ediləcəyi aydın olmayana qədər mən bu qanuna səs verə bilmərəm”.

**“Veteranların müavinəti 130 manata qaldırılsın”**

**Deputat Siyavuş Novruzov müharibə veteranlarının müavinətinin 130 manata qaldırılmasını təklif edib:** ”Çernobılda 8000 nəfər iştirak edib, onlardan 5000-ə yaxın əlil olan var. Birinci Qarabağ müharibəsində 80 min nəfər iştirak edib, 15 min əlil var. Ümumilikdə götürəndə bu kateqoriya əlillərin sayı 21 minə qədərdir. İkinci Qarabağ müharibəsi ilə bağlı statistika hələ hazır deyil. Əlillər arasında fərq qoyulmasına qarşıyam. Amma bu cür həssas təbəqəni incitmək, onların yenidən yoxlamadan keçirilməsi bu insanlara təsir edir”. S.Novruzov əlillərin sayına görə ölkələr arasında müqayisə aparılmasına qarşı olduğunu da qeyd edib: ”Bəzi ölkələrdə heç müharibə olmayıb, müharibədə iştirak edənləri yoxdur. Azərbaycanda isə əlillərin bir qismi müharibə əlilləridir. Hazırda müharibə veteranlarına kommunal xərclərin ödənilməsi ilə bağlı 80 manat müavinət verilir. Hər bir veteran bundan fəxarət hissi keçirir. Ancaq ölkədə nəqliyyat və kommunal sahədə qiymətlər artıb. Ona görə təklif edirəm ki, müharibə veteranları üçün ayrılan kommunal xərclər 130 manata çatdırılsın. Biz bununla 100 mindən çox şəxsin kommunal ehtiyacının qarşılanmasına nail ola bilərik”.

> **Musa Quliyev təkləndi:**
> *“Sanki tək qapıya futbol oynayırıq, mən qapıçıyam, hamı da mənə qol vurur. Belə deyil, hörmətli həmkarlar. Mən də müsəlmanam, a şirvanlılar!”*

**”“31 faizlə 60 faiz eyni pensiya alacaq?!”**

**Deputat Qüdrət Həsənquliyev də bildirib ki, qanun o zaman mütərəqqi olardı ki, faiz dərəcələrinə uyğun pensiya verilərdi:** ”Burada 100 faiz sağlamlığın itirilməsi ölüm deməkdir. Ona görə də əmək qabiliyyətinin itirilməsinə görə pensiya təyin edilməlidir. İndi vətəndaş 3-cü qrup əlillik almaq üçün orqanizmin neçə faizi öz funksiyasını itirməlidir? İkincisi, nazirlik bu dəyişikliklərdən əvvəl bizə maliyyə əsaslanması təqdim etməliydi. Komitə sədri Musa Quliyev ötən iclasda dedi ki, bəlkə də bu qanunun qəbulundan sonra əlillərin sayı artacaq. Mən də deyirəm ki, ola bilsin əlilliyi olanların, əlilliyə görə pensiya alanların sayı azalacaq. Bu kimi halların olmaması üçün nazirlik bizə maliyyə əsasnaməsi təqdim etməliydi. Bilməliydik ki, nə qədər vəsait artacaq, yaxud azalacaq. Nazirlikdən suallarımıza cavab gəlmədikcə, bu qanun layihəsinin lehinə səs verməyəcəm”.

**“Bunu ÜST müəyyən edib, özümüzdən çıxarmamışıq”**

**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev isə narazılıq doğuran məqamlara aydınlıq gətirib.** Deputat bildirib ki, qanun layihəsində faizlərin toplanması orqanizmin müxtəlif orqanlarının müxtəlif formada itirilməsi əsasında olacaq. Burada sadə hesab olmayacaq. Yəni orqanizmin hər hansı orqanının ən yüksək pozulanı əsas götürüləcək. Bunu biz müəyyən etməmişik. ÜST müəyyən edib. Bu qanun qəbul edildikdən sonra 6 ay müddətində tətbiqi sahəsində iş gedəcək. Burada TƏBİB-in, Səhiyyə Nazirliyinin, ƏƏSMN-in əməkdaşlarının iştirakı ilə treninqi keçiriləcək. Sual olunur ki, qanun qəbul olunandan sonra ölkədə əlillik artacaq, azalacaq, maliyyə tutumu artacaq, azalacaq? Bunların heç biri olmayacaq. Bu, sadəcə, bir alətdir. Biz indiyə qədər informasiyanı qəzetdən alırdıqsa, indi telefondan alırıq. Bu, müasirliyin tətbiqidir. Burada orqanizmin funksiyalarının 100 faiz itirilməsi pozulması ilə əvəz olunacaq. Bu, bütün orqanizmi əhatə etmir, bir orqanın itirilməsi nəzərdə tutulur. Əlillik təyin olunarkən orqanizmin müəyyən hissəsini itirməsi götürülür”.

**“Belə deyil, hörmətli həmkarlar”**

**M.Quliyev qeyd edib ki, bura Milli Məclisdir, kim istəyər qanuna səs verər, kim istəməz səs verməz:** ”Elə təsəvvür etdim ki, sanki tək qapıya futbol oynayırıq, mən qapıçıyam, hamı da mənə qol vurur. Belə deyil, hörmətli həmkarlar. Mən də müsəlmanam, a şirvanlılar! Spiker Sahibə xanımın təklifinə qatılıram. Gələn həftə çox genişləndirilmiş komitə iclası keçirək, əlaqədar qurumları çağıraq və bütün suallara aydınlıq gətirək”.

**İsmayıl Qocayev**

# Deputatlar Milli Qurtuluş günündən danışdılar

### "15 İyun Qurtuluşu həm də Vətən müharibəsində qələbənin birinci günüdür"



Milli Məclisin dünənki iclasının 1 saatı Milli Qurtuluş gününə həsr edilib. Bu barədə təklif irəli sürən Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc olub. Millət vəkili Zahid Oruc bildirib ki, Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi indi hamıya bəllidir. Onun sözlərinə görə, Vətən müharibəsində Qələbənin təməlinin qoyulduğu 1993-cü il müxtəlif proseslərdən keçdi:

"Lakin ötən il növbəti həqiqəti gün üzünə çıxdı. Birinci Qarabağ müharibəsindən 3 il sonra güc nisbətinin Azərbaycanın xeyrinə dəyişməsini düşmən etiraf edir. Bu, hakimiyyətə gəlmək üçün "Qarabağı satdılar" deyənlərə cavab idi. Azərbaycan xalqı 10 noyabr 2020-ci il qələbəsinə 15 iyun 1993-cü il - o zamankı qurtuluş hissi ilə yol açdı. Hər iki qurtuluş bir mahiyyətdə birləşir. 15 İyun Qurtuluşu həm də Vətən müharibəsində qələbənin birinci günüdür".

**Deputat Siyavuş Novruzov da bildirib ki, 2020-ci il Heydər Əliyevin arzularının həyata keçdiyi ilə çevrildi:** "Heydər Əliyev məşəqqətlərdən keçməklə Azərbaycan maraqlarını müdafiə etdi. Heydər Əliyev Şuşada "Xarıbülbül" festivalı keçiriləndə dedikləri bugünkü gün üçün deyilmiş fikirlər idi. Heydər Əliyev illər öncə demişdi ki, Şuşasız Azərbaycan yoxdur. O bunu bu gün üçün demişdi. Biz hamımız Heydər Əliyevin əsgərliyik. Kənardan söz deyənlərin cavablarını verməyə hazırıq. Onlar hər zaman ermənilərlə birləşib. Lakin onların əməlləri baş tutmayacaq. Onların nəinki söz deməyə, heç bu ölkədə yaşamağa belə haqqı yoxdur".

**Deputat İsa Həbibbəyli də çıxışında** 15 İyun - Milli Qurtuluş gününün Azərbaycanın xalqının tarixində əhəmiyyətindən danışıb, ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərini vurğulayıb.

Sonda spiker Sahibə Qafarova Milli Qurtuluş günü münasibətilə təbriklərini çatdırıb.

**İsmayıl Qocayev**

## Müstəqilliyimizin 30 ili yaxınlaşır

### Tədbirlər planı hazırlamaq təklif olunub



**Milli Məclisdə müstəqilliyimizin 30 illiyi ilə bağlı tədbirlər planı hazırlamaq təklif olunub. Bunu deputat Vahid Əhmədov təklif edib.**

Parlamentari vurğulayıb ki, 2021-ci il müstəqil Azərbaycan dövlətinin tarixində bir sıra mühüm hadisələrlə yadda qaldı: "44 günlük Vətən müharibəsində Azərbaycan dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə çox ciddi uğurlara imza atıldı. İkinci bir hadisə odur ki, bütün dünyanı bürüyən pandemiya ilə mübarizədə dövlətimiz çox ciddi işlər gördü, müəyyən mənada bunun qarşısını aldı. Hazırda pandemiya ilə bağlı yumşalmalar olur və bu, yəqin ki, davam edəcək".

**Deputat bildirib ki, Azərbaycanın müstəqilliyi haqda Konstitusiya Aktının qəbul edilməsinin bu il 30 ili tamam olur:** "18 oktyabr 1991-cü ildə bu zalda biz dövlət müstəqilliyi haqda Konstitusiya Aktını qəbul etmişik. Müstəqilliyimizi tanıyan ilk dövlət Türkiyə, sonra Ruminiya və Pakistan olub. 1918-ci ildə Azərbaycan müstəqil dövlət kimi cəmi 23 ay yaşadısa, artıq Azərbaycan 30 ildir müstəqildir. Təklif edirəm ki, Azərbaycanın 30 illik müstəqilliyi ilə əlaqədar olaraq Milli Məclis müəyyən tədbirlər planı işləyib hazırlasın. Biz Azərbaycanın müstəqilliyini yenidən bütün dünyaya xatırladaq, bəyan edək. Milli Məclisin rəhbərindən xahiş edirəm ki, bu məsələyə diqqət yetirsin".

**İsmayıl**

# Rusiya mediasında Azərbaycana qarşı düşmənçilik dalğası başlayıb






### Sahib Alıyev: "Bu dalğanı obrazlı desək, hansı rüzgarların qaldırdığı bəllidir"

"Son zamanlar Rusiya mediasında Azərbaycana qarşı düşmənçilik dalğası baş qaldırıb". Bu sözləri millət vəkili Sahib Alıyev deyib. Deputat bildirib ki, Novosibirskdə 19 yaşlı Vüsal Abdullayevin vəhşicəsinə qətli, qətli törədən polisin azadlıqda gəzməsi, ölkə mediasında baş qaldıran anti-Azərbaycan dalğası onu da narahat edir:

"Rusiya mediasında antiAzərbaycan dalğasının baş qaldırdığını görməmək mümkün deyil. Bu dalğanı obrazlı desək, hansı rüzgarların qaldırdığı bəllidir. Amma dəllillər ortada ola-ola, o gənci qətlə yetirən polisə haqq qazandırmağa çalışan, azadlığa çıxmasını təmin edən bastırkinlər və onların mediadakı əlaltıları bilməlidirlər ki, təkcə qanunları ayaq altında salıb tapdamırlar. Bu ksenofob yanaşmayla həm də Azərbaycan-Rusiya əlaqələrinə zərbə vururlar. O əlaqələrə ki, məhz cənab İlham Əliyevlə Vladimir Putinin səyləri nəticəsində az qala strateji müttəfiqliyin bir addımlığınadək irəlilədilib. Kim də olmasa, deputat Vladimir Jirinovski gözəl bilir ki, bu əlaqələrin daha da dərinləşməsi təkcə Azərbaycanın deyil, onun ölkəsinin də maraqlarına uyğundur. Ona görə də şovinist "qanun keşikçi"lərinin cinayətlərinə göz yummaq istəməyən azərbaycanlılara çağırış edərək "Xoşunuz gəlmirsə, Rusiyadan gedə bilərsiniz" deyərkən nəzərə almalıdır ki, hazırda Azərbaycanda hələ mandatları təsdiqlənməyən nə qədər rusiyalı var. Üstəlik, Rusiyadakı azərbaycanlıların çoxu artıq onun kimi ölkə vətəndaşlarıdır, bir hissəsi isə Jirinovskidən fərqli olaraq gəlmə deyillər. Dərbənddəkilər kimi öz torpaqlarında yaşayırlar, avtoxtondurlar".

**Parlament üzvü bildirib ki, əgər Jirinovskini, eləcə də digərlərini Rusiyadakı etnik cinayətkar qruplar narahat edirsə, onda öz diqqətlərini Soçiyə yönəltsinlər:** "O Soçiyə ki, orada erməni cinayətkar ünsürləri at oynadırlar və ötən gün bir təmsilçiləri vəzifə başında olan iki icra məmurunu qətlə yetirdi. Eyni zamanda diqqətlərini ona yönəltsinlər ki, paytaxt Moskvanın mərkəzində, Rusiyanın Dövlət Müstəqilliyi Günündə beynəlxalq terrorçu Monte Melkonyana anım mərasimi keçirilir. Mərasimi bastrıkinlərin çox isti yanaşdıqları Rusiya Erməniləri Birliyinin rəhbəri Ara Abramyan təşkil edir. Terrordan özü də əziyyət çəkən bir ölkədə terrorçunun fetişləşdirilməsinə yönəlmiş bu hərəkətə niyə göz yumulur sualını ritorik təsir bağışlayacağından səsləndirmək istəmirəm. Çünki həmin ölkənin rəsmi təmsilçilərinin, o sıradan yüksək rütbəli hərbçilərinin faşist Qaregin Njdeyə yanaşmada da oxşar mövqe sərgilədiklərini göstərən faktlar var. Sadəcə onu soruşmaq istərdim ki, görəsən, bastrıkinlər və jirinovskilər 1977-ci ildə Moskva metrosunu və 1993-cü ildə Rusiya ərazisində sərnişin qatarını kimlərin partlatdığını unutmayıblar ki?! Və erməni terrorçusunun fetişləşdirilməsinin onları növbəti terrora həvəsləndirdiyinin fərqindədirlərmi?".

**İsmayıl**



# Pakistanla hərbi təlimlər keçiriləcək

### Şair Ramaldanov: "Bizi istəməyən güclərə mesajdır"



**Dünən Bakıda Azərbaycan müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev Pakistan Ordusunun Hərbi Əməliyyat Baş İdarəsinin rəisi, general-mayor Nauman Zakarianın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Tərəflər hər iki ölkənin orduları arasında dostluq və qardaşlıq münasibətləri üzərində qurulan əlaqələrin daha da genişləndirilməsinin vacibliyini vurğulayıb.

Görüşdə ikitərəfli hərbi əməkdaşlığın əsas istiqamətləri, o cümlədən müxtəlif qoşun növlərinin cəlb edilməsi ilə hərbi təlimlərin keçirilməsi, təcrübə mübadiləsi məqsədilə hərbi qulluqçuların qarşılıqlı səfərlərinin təşkili məsələləri müzakirə edilib. Pakistan hərbi nümayəndə heyətinin rəhbəri Azərbaycanın azad olunmuş ərazilərinin minalardan təmizlənməsi prosesində və həmin ərazilərdə həyata keçiriləcək bərpa işlərində ölkəsinin iştirak etməyə hazır olduğunu bildirib.

**Ehtiyatda olan polkovnik Şair Ramaldanov birgə təlimlərin əhəmiyyəti barədə "Şərq"ə danışıb: "Atalar yaxşı deyib ki, dost dar gündə tanınar.** Müharibə vaxtı Türkiyə ilə yanaşı, Pakistan da bizə dəstək oldu. Təsadüfi deyil ki, şəhərin küçələrində hər üç ölkənin bayraqları birgə dalğalanırdı. Ümumiyyətlə, bizim əlaqələrimizin tarixi var. Və bu gün əməkdaşlığımız yeni mərhələyə başlayıb. Əlbəttə, nüvə silahına malik müsəlman ölkəsi ilə belə isti münasibətlər bizim üçün sevindiricidir. Eyni zamaanda Pakistan savaşdan qalib çıxmış və XXI əsrin tələblərinə cavab verən Azərbaycan Ordusu ilə əməkdaşlıqda maraqlıdır. Odur ki, birgə təlimlər hər iki tərəf üçün peşəkarlığın artması baxımından mühüm əhəmiyyətə malikdir. Fikrimcə, əlaqələrimiz gələcəkdə də davam edəcək. Təlimlər həm də siyasi əhəmiyyət daşıyır. Bu, bizi istəməyən güclərə mesajdır".

**Kənan**

# Ərdoğan NATO sammitində minalanmış ərazilərin xəritəsi məsələsini qaldıracaq



## "Dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar Ermənistanın təhlükəli mövqeyini bilməlidir"

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan NATO sammitində və Azərbaycana səfəri zamanı Ermənistanın mina xəritələrini verməməsilə bağlı məsələni gündəmə gətirəcəyini bildirib. Türkiyə lideri vurğulayıb ki, Ankara problemin həllinin tapılması üçün bütün dəstəyini verəcək. Həmçinin, Ərdoğan vurğulayıb ki, Şuşada Azərbaycanla Türkiyə arasında böyükmiqyaslı müqavilə imzalanacaq.**

Dövlət başçısı bəyan edib ki, öncə Füzuliyə, oradan da ölkə rəhbəri İlham Əliyevlə birgə Şuşaya səfər edəcək: "Şuşada böyükmiqyaslı müqavilə imzalanacaq. Bu, Türkiyə ilə Azərbaycan arasında ən böyük müqavilələrdən biri olacaq".

**Millət vəkili Ceyhun Məmmədov "Şərq"ə vurğulayıb ki, Türkiyə-Azərbaycan əlaqələri çox yüksək səviyyədədir. Deputat qeyd edib ki, dünyada bizim qədər bir-birinə yaxın başqa iki dövlət yoxdur:** "Qardaş Türkiyə ilə əlaqələrin inkişafında hörmətli Ərdoğanla cənab İlham Əliyevin rolu danılmazdır. Türkiyə 44 günlük Vətən müharibəsində birmənalı Azərbaycanın yanında oldu. Qardaş ölkə Azərbaycanın haqlı mövqeyini hər şəraitdə dəstəkləyib və hər zaman dəstəkləyəcəyini bəyan edib. Türkiyə Ermənistanın Azərbaycana qarşı təcavüzünü sərt şəkildə qınayan ölkələrin başında durub. Hörmətli Ərdoğanın minalanmış ərazilərin xəritəsi ilə bağlı məsələni də NATO sammitində qaldırması çox mühüm təşəbbüsdür. Dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar xəritə məsələsində Ermənistanın təhlükəli mövqeyini bilməlidir".

Parlament üzvü bəyan edib ki, son dönəmdə Azərbaycanla Türkiyə arasında bir çox vacib sənəd imzalanıb və geniş müzakirələr aparılıb: "Gözlənilir ki, budəfəki səfər çərçivəsində iki ölkə arasında mühüm sahələrdə əməkdaşlıq sənədləri imzalanacaq. İndiki dövrdə güclü Türkiyənin dəstəyi Azərbaycan üçün xüsusi önəm daşıyır. Çünki Ermənistan ciddi canfəşanlıqla Qərbin dəstəyini almağa çalışır. Əlaxüsus Fransa birmənalı Ermənistanı dəstəkləyir. Bu baxımdan Azərbaycanla Türkiyənin bir yerdə olması ölkəmizin faydasınadır. Həm də ölkəmizə qarşı təhdidlərin qarşısının alınmasında önəmli amildir. Azərbaycan zaman-zaman müxtəlif dövlətlərin təzyiqinə məruz qalır. Ölkəmizə qarşı müxtəlif iddialar irəli sürülər. Belə məqamda Türkiyənin qətiyyətli mövqeyi, rəsmi Bakını birmənalı dəstəkləməsi, maraqlarımızı qoruması Azərbaycanın mövqeyini daha qüvvətləndirir. Bu baxımdan qardaş ölkənin yanımızda dayanması həyati əhəmiyyət kəsb edir".

**C.Məmmədov vurğulayıb ki, iki ölkə arasında yeni sazişlərin imzalanması bizi bir-birimizə bağlayan bağları daha da möhkəmləndəcək:** "Türkiyə ilə hərbi və iqtisadi sahədə sıx əməkdaşlığımız var. Azərbaycan Türkiyəyə böyük məbləğdə sərmayələr yatırır. Eyni zamanda Türkiyə şirkətləri Azərbaycanda, xüsusən işğaldan azad edilmiş ərazilərdə yenidənqurma işlərində fəal iştirak edirlər. Atılan bütün addımlar iki qardaş ölkənin vəhdətini formalaşdırır".

**İsmayıl Qocayev**







# Şəhid jurnalistlərin xatirəsinə beynəlxalq poçt markası buraxıldı

**Niderland krallığının Amsterdam şəhərində yaşayan həmyerlimiz Səltənət Rəvanqızının təşəbbüsü ilə Kəlbəcərdə mina partlaması nəticəsində həlak olmuş azərbaycanlı jurnalistlərin xatirəsinə beynəlxalq poçt markası buraxılıb.**

Bu barədə Diasporla İş üzrə Dövlət Komitəsi məlumat yayıb.

"Azərbaycanın inciləri" layihəsi çərçivəsində gerçəkləşdirilən markanın üzərində mina partlaması nəticəsində həlak olmuş jurnalistlər Məhərrəm İbrahimov və Sirac Abışovun şəkilləri təsvir edilib.

Markalar Niderlandın rəsmi poçt rabitəsinin PostNL milli operatoru tərəfindən çap edilib.

Məqsəd beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan hökumətinin cinayətkar davranışına və mina xəritələrini təhvil verməməklə regionda sülhə-sabitliyə mane olmasına cəlb etməkdir.

**Aynurə**



# Xalq artisti peyvənddən 2 gün sonra koronavirusa yoluxdu

"İki aydır züm-zümə belə edə bilmirəm"

**Xalq artisti Mübariz Tağıyev koronavirus keçirib.**

Sənətçi bu haqda "Mtv" kanalına müsahibəsi zamanı danışıb.

Virusa harada və necə yoluxduğunu bilməyən Xalq artisti evində müalicə alıb. Peyvənd vurduran Mübariz Tağıyevdə iki gün sonra COVID-19 aşkarlanıb.

Hazırda virusdan sağalan sənətçi səhnə üçün darıxdığını deyib:

"İki aydır züm-zümə belə edə bilmirəm. Səhnə üçün çox darıxırdım. Televiziyalar koronavirusa yoluxduğumu bilirdi. Ona görə də məni verilişlərə dəvət etmirdilər. Hazırda isə yeni mahnılarım var və onlar üzərində işləyirəm".

# 13 deputat əlilliklə bağlı yeni qanunun əleyhinə səs veriblər

## Spiker Sahibə Qafarova layihənin yenidən komitə iclasında müzakirə edilməsini təklif edib



*Milli Məclisdə əlilliyin təyin edilməsi ilə bağlı yeni qaydalar ikinci oxunuşda təsdiq edilib. Lakin 13 deputat əlilliklə bağlı yeni qanunun əleyhinə səs verib. Qanuna səs verməyən deputatlar sırasında Qüdrət Həsənquliyev, Vahid Əhmədov, Sabir Rüstəmxanlı, Aqil Abbas və digər millət vəkilləri olub.*

Millət Vahid Əhmədov əlilliklə bağlı yeni qanun layihəsinə qarşı çıxaraq müvafiq komissiya yaradılmasını təklif edib: "Keçmiş nazir Səlim Müslümov pensiya ilə bağlı elə bir layihə təqdim etdi ki, bu günə qədər onun altından çıxa bilmirik. Qanun layihəsi paket şəklində verilməlidir. Təklif edirəm ki, bir komissiya yaradılsın. Əmək və əhalinin sosial müdafiəsi naziri özü gəlib bu məsələni məruzə etsin. Burda faizlər haqqında danışdılar. Baxaq görək ki, faizləri müəyyən etməklə nəyə nail olduq?! Bizi Avropa ilə müqayisə edirlər. Avropaya çatmağımıza hələ çox var. Bu qanun üzərində ciddi iş getməlidir".

**Millət vəkili Aqil Abbas da layihəyə səs verməyəcəyini söyləyib:** "Deputatların hamısı "Əlillik haqqında" qanun layihəsini tənqid edir, sonda isə deyirlər ki, çox mütərəqqi layihədir. Birinci Qarabağ savaşının veteranları 28 ildir veteran kağızı ala bilmir. Vətən müharibəsi 7 aydır bitib, iştirakçılar elə bir deputat yoxdur ki, əlində sənədlə onun qapısını döyməsinlər. Buna niyə baxılmır? Əlilliyin təyin olunması ilə bağlı mütəxəssislər var, dəvət edilsinlər. Layihəyə bir də baxsınlar".

Mübahisəli qanun layihəsinin yenidən müzakirə olunmasına qərar verilib. Spiker Sahibə Qafarova əlilliklə bağlı qanun layihəsinin yenidən komitə iclasında müzakirə edilməsini təklif edib. Parlament sədri Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyevə bildirib ki, üçüncü oxunuşdan öncə komitə iclası geniş formatda keçirilməlidir: "Çünki çoxlu suallar ortaya çıxır. Üçüncü oxunuşdan öncə geniş formatda müzakirə vacibdir". Deputat Musa Quliyev isə təklifin müvafiq olduğunu qeyd edib.

Məlumat üçün bildirək ki, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanuna təklif olunan dəyişikliyə əsasən, əlillik dərəcəsinin təyin edilməsi ilə əlaqədar yeni qaydalara keçilir. Belə ki, artıq I, II və III qrup kimi əlillik göstəricisi olmayacaq. Əlillik dərəcəsi orqanizmin funksiyasının itirmə dərəcəsinə görə, yeni faizlə müəyyən ediləcək. Orqanizmin funksiyasının 30-60 faiz itirilməsi III qrup, 60-80 faiz itirilməsi II qrup, 80-100 faiz itirilməsi isə I qrup hesab olunacaq. Yeni qaydalar 2022-ci ilin yanvarın 1-dən qüvvəyə minəcək.

**İsmayıl Qocayev**

# Rusiya problemin tam həll olunmasını istəmir



## Əgər ürəkləri belə yanırsa, minalı ərazilərin xəritəsini versinlər

*Rusiyanın Xarici işlər naziri Sergey Lavrov "Primakov qiraəti" forumunda çıxış edib. Nazir deyib ki, Dağlıq Qarabağın statusu məsələsini ATƏT-in Minsk qrupunun həmsədrləri ilə razılaşdırmaq vacibdir, ancaq indi onu deyil, dinc sakinlərin regiona qayıtmasını vurğulamaq lazımdır".*

Lavrovun fikrincə, indiki mərhələdə azərbaycanlılarla ermənilərin yenidən bir yerdə təhlükəsiz yaşamaları və iqtisadi rifahları ilə bağlı məsələlər həll olunur: "Əgər biz belə bir həyatı təmin edə bilsək, onda bir neçə ildən sonra statusla bağlı bütün problemləri həll etmək daha asan olacaq". Rusiya XİN rəhbərinin cəhənnəmə göndərdiyimiz "status" məsələsini fasilələrlə gündəmə gətirməsi müəyyən məqsədlərə xidmət edir. Düzdür, Lavrov vurğulayır ki, indi əsas məsələ əməkdaşlıq, etimadın formalaşması və sabitlikdir. Amma bu fikirlərini "status" məsələsi fonunda ortaya atması Kremlin əsl niyyətini aşkar edir. Görünür, Moskva hazırda prioritet hesab etdiyi regional əməkdaşlıq məsələsi həllini tapandan sonra "status" mövzusu ətrafında müzakirələrə başlayacaq.

**AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli Rusiyanın yeni "senarisi" barədə "Şərq"in suallarını cavablandırıb:**

**- Lavrovun sözügedən açıqlamasını necə qiymətləndirirsiniz?**

- Rusiya istəyir ki, konflikt həll olunmamış qalsın. Şəxsən Lavrov Rusiyadakı erməni lobbisinin birinci şəxsidir. Dövlət başçısı Vladimir Putin də demişdi ki, problemin çözülməsi gələcək nəsillərə qalsın. Təkrarlayıram, Kreml məsələnin nə Azərbaycanın, nə Ermənistanın xeyrinə həll olunmasında maraqlıdır. Ümumiyyətlə, şimal qonşumuz post-sovet məkanında hansı məsələni həll edib ki?!

**- Elə isə Azərbaycan nə etməlidir?**

- Biz Ermənistandakı seçkilərdən sonra Rusiyaya qarşı konkret siyasi mövqe ortaya qoymalıyıq. Və bildirməliyik ki, hazırda rus sülhməramlılarının olduğu yerdə də Azərbaycanın yurisdiksiyası təmin olunmalıdır.

**- Rusiya XİN sözçüsü Mariya Zaxarova bildirib ki, Moskva ərazilərin təcili surətdə minalardan təmizlənməsində maraqlıdır. Bu açıqlama nə qədər səmimidir?**

- Əlbəttə, səmimi deyil. Əgər ürəkləri belə çox yanırsa, minalı ərazilərin xəritəsini versinlər. Və ya Ermənistandan bunu tələb etsinlər. Zaxarovaya demək lazımdır ki, ümid etməklə iş keçmir.

**- Son vaxtlar ABŞ Cənubi Qafqazda mövcudluğunu göstərməyə çalışır. Bu, Rusiyanın hegemonluğunun qarşısını ala bilərmi?**

**"Qarabağ məsələsində Rusiyanın, ABŞ-ın və Fransanın mövqeyi eynidir. Sadəcə, Vaşinqton regiondakı üstünlüyü Moskvanın əlindən almaq istəyir"**

- Qarabağ məsələsində Rusiyanın, ABŞ-ın və Fransanın mövqeyi eynidir. Sadəcə, Vaşinqton regiondakı üstünlüyü Moskvanın əlindən almaq istəyir. Amma biz vəziyyətdən istifadə edə bilərik.

**- Necə?**

- Paşinyan Qərbə meyillənsə, Kremlə başa salacağıq ki, onun üçün regiondakı ən yaxşı tərəfdaş bizik. Və ən əlverişli variant Qarabağ məsələsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmasıdır. Rusiya Cənubi Qafqazda yalnız o halda ola bilər ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanısın və bizim bütövlükdə Qarabağda yurisdiksiyamız təmin olunsun.

**Kənan Novruzov**

## Minatəmizləmə adı ilə rus əsgərlərinin sayı artırıla bilər

### Cümşüd Nuriyev: "Ölkəmizdə min nəfər rus hərbçisi olduqdan sonra istənilən addımı ata bilərlər"



**Rusiya XİN nümayəndəsi Mariya Zaxarova Qarabağ üzrə üçtərəfli işçi qrupun yaxın zamanda öz fəaliyyətini bərpa edəcəyini gözlədiyini deyib.** O qeyd edib ki, Rusiya, həmçinin Qarabağın minalardan təmizlənməsi prosesinin də sürətlənəcəyinə ümid edir. Yaxşı bir misalımız var: "Dəlidən doğru xəbər". Hərçənd, bəlkə də, hər kəsin səmimiliyinə inanmaq olar, Moskvadan başqa.

**Siyasi elmlər doktoru, politoloq Cümşüd Nuriyev yuxarıda bəhs olunan bəyanat barədə "Şərq"ə danışıb. Onun fikrincə, bu, növbəti provokasiya cəhdidir:** "Aysberqin görünməyən tərəfinə baxmaq lazımdır. Əslində həmin açıqlama Azərbaycanın ziyanınadır və bizim üçün təhlükəlidir. Məlum olduğu kimi, ötən altı ayda ərazilərin minalardan təmizlənməsi üçün təxminən 100 rus əsgəri göndərilib. İndi bir bəhanə ilə həmin hərbçilərin sayını bir az da artırmaq istəyirlər. Bu, uzun müddətə hesablanmış təxribatdır. Ölkəmizdə min nəfər rus hərbçisi olduqdan sonra istənilən addımı ata bilərlər. Hər halda Rusiya Şuşanın, Hadrutun və digər yerlərin azad edilməsinə görə olduqca narahatdır. Həmin torpaqlar yenidən tapdaq altına düşə bilər. Odur ki, ehtiyatlı davranmalıyıq. Rusiya heç vaxt səmimi olmayıb. Şimal qonşumuzun səmimiliyinə inananlar isə ancaq "V kolon"un üzvləridirlər. Niyə Ərdoğan ailəsi birlikdə Şuşaya gəlmək haqda açıqlama verəndən sonra Zaxarova belə bəyanat səsləndirdi?! Əlbəttə, bu, təsadüfi deyil. Dövlət başçısının Rusiya rəsmisinin sözlərinə müsbət reaksiya verəcəyinə inanmıram".

**Kənan**



## Ərdoğan-Makron görüşü nə vəd edir?

### "Bakı və Ankaranın maraqlarına cavab verir"

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan fransalı həmkarı Emmanuel Makronla görüşəcək. Dövlət başçıları iyunun 14-də keçiriləcək NATO sammiti öncəsi bir araya gələcəklər.**

"NATO daxilində müttəfiqlər arasındakı münasibətlər önəmlidir. Bu məsələyə aydınlıq gətirmək üçün Ərdoğanla sammitdən əvvəl görüşəcəyik", - deyə Fransa prezidenti bildirib.

**Azərbaycan Demokrat Partiyasının (ADP) sədrinin müavini, politoloq Həsrət Rüstəmov "Şərq"ə açıqlamasında liderlər arasındakı görüşün əhəmiyyətini yüksək qiymətləndirib:** "Fransanın hazırkı Prezidenti Makronun müsəlman dünyasına, o cümlədən Azərbaycan və Türkiyəyə münasibəti açıqdır. Lakin bütün hallarda düşünürəm ki, görüş Bakı və Ankaranın maraqlarına cavab verir. Həmçinin dialoq Avropa İttifaqı ilə Türkiyə münasibətləri baxımından da əhəmiyyətlidir. Bildiyiniz kimi, tərəflər arasındakı əlaqələr zəifləmişdi. Bundan sonra bərpa oluna bilər".

**Kənan**

# Muzdlu erməni terrorçunun məhkəməsi başlayıb

## "Arvadı ifadəsində etiraf edib ki, bizə qarşı pulla döyüşürdülər"

*Bu gün Yasamal Rayon Məhkəməsində Qarabağda döyüşən livanlı muzdlu terrorçu Eulcekcian Viken Abrahamın cinayət işi üzrə məhkəmə iclası davam etdiriləcək. Hakim Elbəy Allahverdiyevin sədrliyi ilə keçiriləcək prosesdə təqsirləndirilən şəxsin vəkilinin müdafiə çıxışı, V.Eulcekcianın son sözü və ona hökm oxunması gözlənilir. Ötən məhkəmə iclasında dövlət ittihamçısı çıxış edib. Prokuror çıxışında təqsirləndirilən şəxsin azadlıqdan 20 il məhrum edilməsini istəyib.*

Törətdiyi cinayət əməllərinə görə Viken Eulcekciana Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 114.3-cü (muzdlunun hərbi münaqişədə və ya hərbi əməliyyatlarda iştirakı), 214.2.1-ci (terrorçuluq qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə), 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələrində nəzərdə tutulan cinayətlərdə ittiham elan edilərək barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.



**Sabiq millət vəkili, hüquq müdafiəçisi Çingiz Qənizadə "Şərq"ə açıqlamasında həmin şəxsin layiqli cəzanı alacağına inandığını dedi:** "Eulcekcian Viken Abraham Qarabağ müharibəsindən sonra məhkəməyə çıxarılan ilk muzdlu terrorçudur. Muzdluluq müharibə cinayətidir. Və bütün ölkələrdə olduğu kimi, Azərbaycanda bu əməlin hüquqi məsuliyyəti var. Məlum olduğu kimi, ermənilər savaş dövründə dezinformasiyalar yayır, Azərbaycan tərəfindən muzdluların döyüşdüyünü deyirdilər. İndi göründü ki, bu belə deyil. Həmin şəxsin telefonundakı kadrlar da onun terrorçuluq fəaliyyəti ilə məşğul olduğunu təsdiqləyir. Eyni zamanda snayperçiliklə məşğul olan Eulcekcian Viken Abrahamın arvadı ifadəsində etiraf edib ki, bizə qarşı pulla döyüşürdülər. Düzdür, məhkəmənin işinə qarışmaq olmaz. Lakin muzdlu terrorçuların müvafiq maddələr üzrə layiqli cəzasını alacağına ümid edirəm".

**Kənan**

# Paşinyanın Gədəbəyin Başkənd kəndi haqqında danışmasının heç bir hüquqi əsası yoxdur



**Keçmiş baş nazir Zəngəzur dəhlizində olduğu kimi 7 kənd mövzusunda da manipulyasiya etməyə çalışır**

**Ermənistanın Baş naziri səlahiyyətlərini icra edən Nikol Paşinyan Gədəbəydəki Başkənddən danışıb. Paşinyan Tavuş vilayətinə səfəri zamanı Qazaxın 7 kəndi ilə Gədəbəyin ərazisində yerləşən Başkənd kəndini dəyişməyi təklif edib:**

"Hazırda situasiya dəyişməz olaraq qalır. Niyə? Çünki bizim də Başkənd kəndimiz Azərbaycanın nəzarəti altındadır. Bizim məntiqimiz belədir - anklav anklavla dəyişdirilməlidir və onların nəzarətində olan ərazi onlara, bizim nəzarətimizdə olan ərazi isə bizə qalmalıdır".

**Politoloq, Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi Tural İsmayılov "Şərq"ə bildirib ki, Paşinyanın Başkəndlə bağlı sərsəm açıqlamasının bir neçə səbəbi var.** Analitikin sözlərinə görə, Paşinyan müxalifətdə olarkən Ermənistandakı radikal millətçilik və faşizm elementlərini tənqid edirdi. Lakin özü hakimiyyətə gəldikdən sonra Ermənistanın təlim-tədris prosesində və öz şüarlarında radikal erməni millətçiliyi və qəsbkar faşizm ideologiyasını daha da möhkəmləndirdi: "Hazırda həmin radikal erməni millətçiliyi şüurunda olan siyasi kəsim arasında özünə xal qazanmaq və seçki öncəsi dividend əldə etmək üçün bu cür populist açıqlamalar verir. Paşinyanın birinci hədəf rakursu və kontingenti məhz həmin kütlədir.

İkinci səbəb isə ondan ibarətdir ki, Paşinyan başa düşür ki, sərhədlərin demarkasiya və delimitasiya məsələsi mütləq və aktualdır. 20 iyun seçkisindən sonra bu təkcə Azərbaycan tərəfindən deyil, 10 noyabr bəyanatının qarantorlarından olan Rusiya tərəfindən də tələb ediləcək. Onsuz da Rusiya siyasi elitasında təmsil olunan yüksək vəzifəli məmurlar, XİN rəhbəri, baş naziri sərhədlərin müəyyənləşməsi ilə bağlı yekun rəylərini ortaya qoyublar. Sovet dönəmində olan xəritələrdə Qazaxın 7 kəndi məhz Azərbaycan ərazisi kimi göstərilir. Ermənistan Qarabağı işğal edərkən Azərbaycanın Qərb bölgəsində, Gəncə-Basarda da müxtəlif təxribatlar törədib, mülki insanlara qarşı terror həyata keçirib. Qazaxın 7 kəndinin də işğalı məhz həmin kontekstdə baş verib".

*T.İsmayılov bəyan edib ki, sərhədlərin dəqiqləşdirilməsi labüd olduğuna görə, Paşinyan bu məsələdən qaça bilməyəcəyini anlayır:* "Zəngəzur dəhlizində olduğu kimi 7 kənd mövzusunda da manipulyasiya etməyə çalışır. Lakin Paşinyanın Başkəndlə bağlı söylədiklərinin heç bir hüquqi əsası yoxdur. Sərhədlər dəqiqləşdirildikdən sonra Paşinyanın ümumiyyətlə iqtidarda qalması və Ermənistanın yarım vassal vəziyyətində olan "dövlət sütunları"nı ayaqda saxlaması üçün Azərbaycan və Türkiyə ilə münasibətlər qurması zəruridir. Əks halda Ermənistan təxribatçı xətti davam etdirərsə, olan-qalan dövlətçilik ənənəsi də tamamilə sıradan çıxacaq".

**İsmayıl Qocayev**




## Şuşada Böyük Türk müqaviləsi imzalana bilər

### Azərbaycanda Türkiyə hərbi bazalarının yaradılması mümkündür

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşada səfərdə olarkən azərbaycanlı həmkarı İlham Əliyevlə yeni müqavilə imzalayacağını deyib.**

Türkiyə liderinin dediyindən anlaşılır ki, müqavilədəki müddəalar iki dövlət arasındakı strateji münasibətlərin daha da dərinləşdirilməsinə hesablanıb. Yəni bu sazişi "böyük" adlandıra bilərik. "Bu, əhatəli bir müqavilə olacaq"- deyə Ərdoğan bildirib.

**Keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov "Şərq"ə açıqlamasında sənədlərin mühüm əhəmiyyət kəsb edəcəyini deyib:** "Dəqiq bir söz demək çətindir. Amma hər halda strateji əhəmiyyətli sənədlər olacaq. Və hər iki ölkə üçün müstəsna rol oynayacaq".

**Hüquqşünas, politoloq Fərhad Mehdiyev də öz proqnozlarını bölüşüb:** "Ola bilsin, həmin müqavilələr azad olunmuş ərazilərdəki bərpa işləri ilə bağlı olsun. Ya da Türkiyə hərbi kontingentinin ölkəmizdə yerləşməsini nəzərdə tuta bilər. Hər halda bunlar sadəcə proqnozlardır".

**Kənan**

# Qapalı məkanlar maskasız adamlarla doludur

## "Hətta satıcılar arasında da müştəriyə maskasız xidmət göstərənlər var"

DİN-in Dövlət Yol Polisi İdarəsi əhaliyə xəbərdarlıq edib. Yayılan məlumatda bildirilir ki, Nazirlər Kabinetinin 2021-ci il 26 may tarixli 151 nömrəli qərarı ilə açıq havadakı ictimai yerlərdə tənəffüs yollarını qoruyan fərdi qoruyucu vasitələrdən məcburi istifadə edilməsinə dair tələb ləğv olunub. Lakin bu o demək deyil ki, qapalı məkanlarda, o cümlədən ictimai nəqliyyatda qoruyucu maskalardan istifadə etməmək olar:

"NK-nin 2020-ci il 29 may tarixli 189 nömrəli qərarına əsasən, şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili) sərnişindaşımada istifadə olunan nəqliyyat vasitələrində (avtobus, taksi, metro, dəmiryolu və s.) tənəffüs yollarını qoruyan fərdi vasitələrdən (tibbi maska, parça maska, respirator və sair) mütləq istifadə edilməlidir. Qeyd olunanları nəzərə alaraq, bir daha vətəndaşlardan qapalı məkanlarda, həmçinin ictimai nəqliyyatda qoruyucu maskalardan istifadə etmələrini xahiş edir və ümid edirik ki, hər birimiz məsuliyyətli olmaqla koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə müəyyən olunmuş qaydalara riayət edəcəyik".

Mayın 31-dən açıq havada tibbi maskadan istifadə qadağası rəsmən ləğv edilib. Bunu əhali uzun müddətdir gözləyirdi və narazılıq vardı ki, havalar istiləşir, tibbi maska ilə nəfəs almaq çətinləşir, "imkan verin təmiz hava alaq". Buyurun, imkan da verildi, qərar da. Amma nə baş verir? İctimai nəqliyyatda maskasızların sayı getdikcə artır, hətta aylarla intizarını çəkdiyimiz metropolitendə belə maskasız sərnişinlərə rast gəlinir. Təəccüblüdür ki, metroya girişdə ciddi yoxlamalar aparıldığı halda maskasız sərnişinlər içəri necə yol tapır? Mümkündür ki, sərnişin metro vaqonuna mindikdən sonra maskanı çıxarır. Lakin vaqonlarda müşahidə kameraları var, daimi nəzarət həyata keçirilir. Belə sərnişinlərə mütləq xəbərdarlıq edilməlidir. İctimai nəqliyyatda tibbi maska tələblərini pozansa, daha çox sürücülərdir. Sürücü maskasız, sərnişin maskasız. Sanki pandemiya bitib, daha heç bir təhlükə yoxdur. Halbuki, virusun yeni-yeni növləri, ştamları ortaya çıxır və belə vəziyyət hamıdan daha artıq məsuliyyət tələb edir.




**"Kiməsə söz demək mümkün deyil. Qayıdıb elə cavab verirlər ki, adam abırdan düşür"**

**Mövcud durumla bağlı fikirlərini "Şərq"ə bildirən Əməkdar jurnalist, siyasi şərhçi Azər Həsrət şəhərdəki vəziyyəti müşahidə etdiyini dedi:**

- Yumşalmalardan sonra ictimai nəqliyyatdan istifadə etmişəm, ticarət mərkəzində alış-veriş etmişəm. Sizin dediyiniz kimi, avtobusda da, ticarət mərkəzində tibbi maskadan istifadə etməyənlərin olduğunu gördüm. Hətta satıcılar arasında da müştəriyə maskasız xidmət göstərənlər vardı. Nə edəsən? Kiməsə söz demək mümkün deyil. Qayıdıb elə cavab verirlər ki, adam abırdan düşür. Əvvəllər olub belə hallar, sürücüyə hansısa məsələ ilə bağlı irad bildirmişəm, çox kobud cavab verib. Vətəndaşlar da elədir. İrad bildirəcəksən ki, niyə tibb maskanız yoxdur, haqsız olduğu halda səni borclu çıxaracaq. Bu artıq insanların şəxsi məsuliyyət hissinin hansı dərəcədə formalaşmasından asılı məsələdir. ABŞ-da yaşayan bir dostumuz var, yazır ki, "Ağ Ev"ə girişdə artıq tibbi maska tələb olunmur. "COVİD-19" yoxlaması da aparılmır. 2 il əvvəl necə rahat giriş-çıxış vardısa, artıq indi də elədir. Amma 5 dəfə koronavirus testindən keçib hər dəfə neqativ cavab almasına baxmayaraq tibbi maskadan istifadədən imtina etmədiyini, bununla özünü və ailəsini qoruduğunu yazır. Bu, Amerikada yaşayan bir azərbaycanlının təfəkkürüdür. Burda, Azərbaycanda isə açıq havada maska taxmaq qadağası qaldırılan kimi qapalı məkanları da onun "gözünə qatırlar". Nazirlər Kabineti yoluxma sayındakı müsbət azalmanı, havaların istiləşməsini, yay mövsümü olduğunu, pandemiya dövrünün ümumi gərginliyini nəzərə alıb, açıq məkanlarda tibbi maskalardan istifadə şərtini ləğv elədi. Bununla NK bizə seçim imkanı verir. Amma məsuliyyətsiz insanlar yumşalmalardan sui-istifadə edir. Düşünürəm ki, insanlarımızın məsuliyyətsizliyi davam edəcəksə, uzağı, 1 aydan sonra ciddi yoluxma dalğası başlayacaq. Yenidən sərt qapanmalar istəmiriksə, məsuliyyətli davranmalıyıq. DİN də müraciətində bunu bildirir ki, biz sizə güvənirik, inanırıq, siz də şüurlu davranın.

**Məlahət Rzayeva**



# Kəlbəcərdə atəş səsləri...

İyunun 11-də saat 13.45-dən başlayaraq Vardenis rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi ərazisindəki Ermənistan silahlı qüvvələri mövqelərindən Kəlbəcər rayonu istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqeləri atıcı silahlardan mütəmadi atəşə tutulub.

Bu barədə Azərbaycan Müdafiə Nazirliyindən məlumat verilib.

Dünən axşam saat 17.00-dan 17.30-dək Vardenis rayonu ərazisindəki Ermənistan silahlı qüvvələri mövqelərindən Kəlbəcər rayonunun Aşağı Ayrım yaşayış məntəqəsi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqeləri yenə atıcı silahlardan atəşə tutulub.

Məlumatda qeyd olunur ki, Azərbaycan Ordusunun şəxsi heyəti arasında həlak olan və yaralanan yoxdur.

Hazırda bu istiqamətdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

Qeyd edək ki, ötən gün isə Ermənistan Müdafiə Nazirliyi Ermənistan-Azərbaycan dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində yerləşən Azərbaycan silahlı qüvvələrinin bölmələrinə atəş açması barədə açıqlama yayıb. Azərbaycan Müdafiə Nazirliyinin məlumatında qeyd olunub ki, Ermənistan silahlı qüvvələri tərəfindən silahlı qüvvələrimizin mövqelərinə atəş açılması faktı öz təsdiqini tapıb. Xoşbəxtlikdən açılmış atəş nəticəsində Azərbaycan silahlı qüvvələrinin şəxsi heyəti sırasında həlak olan və ya yaralanan yoxdur. Bu fakt bir daha onu sübut edir ki, Ermənistan tərəfi seçkiöncəsi qəsdən iki ölkənin dövlət sərhədi istiqamətində vəziyyəti gərginləşdirmək və hərbi təxribatlar törətmək siyasətini davam etdirir. Qeyd edək ki,bu gün bütün sahələrdə Ermənistanda xaos hökm sürür. Xüsusən, Laçın-Gorus sərhədində yaranan problemdən sonra Ermənistan təxribatları əsasən Kəlbəcər istiqamətində həyata keçirir. Məhz Kəlbəcər istiqamətində intensiv təxribatların törədilməsinin məqsədi nədir? Bu, Paşinyanın seçkiöncəsi gözlənilən sərhəd təxribatlarının davamıdır?

**Suallarımızı cavablandıran BAXCP sədrinin müavini, politoloq Azər Qasımov "Şərq"ə açıqlamasında qeyd edib ki, Ermənistanda keçiriləcək seçki başa çatana kimi sərhəddə təxribatların olmasını gözləmək lazımdır. Çünki sərhəddə gərginlik seçkidə iştirak edən tərəflərin hamısı üçün öz mənafelərini gücləndirmək baxımından sərfəlidir:** "Paşinyanın seçki kampaniyasına bu gərginlik "hələ təslim olmamışıq" kimi lazımdırsa, Koçaryan və digərlərinə erməni xalqına "Azərbaycan tərəfi Ermənistanın zəifliyindən istifadə edib, sərhədlərini möhkəmləndirir və indiki hakimiyyət bunun qarşısını almaqda gücsüzdür" mesajı verməyə çalışır. Bu gərginlikdə maraqlı tərəf Qərb və Fransadır. Onlar da regionda gərginliyin qalmasında maraqlıdırlar. Qərb Rusiyanın rolunu heçə endirməyə çalışır. Fransa isə Ermənistanın maraqlarını qoruyur kimi görünsə də, əslində əsas marağı Türkiyənin regionda aktivliyinin qarşısını almaqdır".

**A.Qasımov əlavə edib ki, Kəlbəcər istiqamətində gərginliyin artması əslində diqqəti Zəngəzur istiqamətindən yayındırmaq məqsədi güdür:** "Bu, İranın oyunu ola bilər, çünki "Zəngəzur dəhlizi" məsələsi İranın maraqlarına ziddir. Bu baxımdan, hesab edirəm ki, belə gərginliklər olacaq. Seçkilərdən sonra kimin qələbə çalmasından asılı olaraq vəziyyətin necə olacağı maraq doğurur. Paşinyan və tərəfdarlarının qələbə çalacağı real kimi görünür. Bu durumda Ermənistan daxilində və sərhəddə gərginliklərin olması mümkündür. Lakin bunun ciddi problemlər yaradacağına ehtimal vermirəm. Əsas problemin Paşinyanın Ermənistanın açıq Qərbyönlü siyasət aparacağı durumda Rusiya tərəfindən yaradılacağını hesab edirəm. Rusiya Ermənistanda kimin hakimiyyətdə olmasından asılı olmayaraq əgər ona qarşı fəaliyyət aparmırsa, onu regionda stabillik naminə qəbul edə bilər. Amma bu fəaliyyət Rusiyanın təhlükəsizliyinə təhlükə yaradarsa, onda nə yolla olur-olsun onu devirə bilər".

## Düşmən diqqəti Zəngəzur istiqamətindən yayındırmağa çalışır

**Politoloq Məhəmməd Əsədulazadə isə bildirib ki, Ermənistanın Kəlbəcər rayonunu istiqamətində atəşkəsi mütəmadi pozması bu ölkə daxilində siyasi vəziyyətin böhranından irəli gəlsə də, əsasən delimitasiya və demarkasiyaya mane olmaqdır:**

"Çünki həmin istiqamətdə Azərbaycan öz sərhədlərini müəyyən edir, nəticədə isə ermənilər atəş açır. Həmçinin bu atəş Azərbaycanın son aylarda uğurlu şəkildə Ermenistan üzərində siyasi üstünlüyü və Ərdoğanın Şuşa səfərinə qarşıdır. Göstərmək istəyirlər ki, Ermənistan məğlub olsa da, bunula barışmayıb. Kəlbəcər strateji yerdir və Sevan gölünun yaxınlığından sərhəd keçir. Ermənistan çalışır ki, həmin istiqamətdə Azərbaycan yüksəkliyi götürməsin. Bundan əlavə Ermənistan ordusunda Qarabağ klanına yaxın hərbiçilər qəsdən bunu edərək Azərbaycan cavab versin və nəticədə onlar tərəfindən ölüm halları yaransın və bununla da Paşinyanın reytinqinə mənfi təsir etsin".

**Aynurə Pənahqızı**



# 65 yaş çoxdur

## Deputatlar pensiya yaşının azaldılmasını təklif edib

**Parlamentin dünənki iclasında pensiya yaşının yuxarı olması məsələsi də müzakirə olunub. Deputat Qüdrət Həsənquliyev pensiya yaşının azaldılmasını təklif edib. O qeyd edib ki, Azərbaycan əhalisinin cəmi 7 faizi pensiya alır:**

"Azərbaycanda əhalinin cəmi 7 faizi 65 yaşdan yuxarıdır. Bizdə isə pensiya yaşı 65 yaşdır. Deməli, əhalinin cəmi 7 faizi bu haqdan istifadə edir. Ortalama ömür uzunluğu azdır. Buna görə də pensiya yaşını aşağı salmaq lazımdır. İnsanlar DSMF-yə pul ödəyir".

Deputat Aqil Abbas da həmkarına dəstək verib. Parlament üzvü bildirib ki, sovet vaxtı balet ustaları 35 yaşdan pensiyaya çıxırdı: "Bu zaman futbolçular da dava edirdi ki, 35 yaşdan sonra onlar da pensiyaya çıxa bilsinlər. Bizdə isə pensiya yaşı 65-dir. Sovet dövründə təhsil alanlar xatırlayar, "ölü pensiya" anlayışı var idi. İndi Azərbaycanda ona çatmışıq. Lağ etdiyimiz məsələ başımıza gəlib. Mən bu layihənin əleyhinəyəm və səs verməyəcəm". Deputat mütəxəssislər tərəfindən qanun layihəsinə yenidən baxılmasının vacibliyini bildirib.

**İsmayıl**

# Jurnalistlər binasının komendantı polis nəzarətinə alınıb



**Jurnalistlər binasının komendantı Binyamin İsmayılov KİVDF-nin sabiq və həbsdə olan sədri Vüqar Səfərlinin ittiham edildiyi cinayət işi ilə bağlı təqsirləndirilən şəxs qismində cəlb edilməklə barəsində polisin nəzarətinə vermə qətimkan tədbiri seçilib.**

Baş Prokurorluğun mətbuat xidmətindən APA-nın sorğusuna cavab olaraq məlumat təsdiqlənib.

*Qeyd edək ki, B.İsmayılov cinayət işinə təqsirləndirilən şəxs qismində cəlb olunub.*

# Bir saatdan artıq tədbir olmayacaq

## Məktəblərdə "Son zəng"in keçirilməsi qaydası məlum oldu



**Azərbaycanda bütün ümumi təhsil müəssisələrində "Son zəng" tədbirlərinin təşkili qaydası müəyyənləşib.**

**"Şərq"in məlumatına görə, bununla bağlı Təhsil Nazirliyi tərəfindən rayon və şəhər təhsil şöbələrinə müvafiq tapşırıqlar verilib.**

Belə ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın razılığını nəzərə alaraq cari tədris ili üzrə "Son zəng" tədbirinin 14 iyun 2021-ci il tarixində aşağıda göstərilmiş qaydalara əməl edilməklə təşkil edilməsinə icazə verilir:

- Tədbirin ümumi təhsil müəssisəsinin həyətyanı ərazisində sosial məsafə gözlənilməklə açıq hava şəraitində bir saatdan artıq olmamaqla keçirilməsi;

- Yalnız ümumi təhsil müəssisəsinin 11-ci sinif şagirdlərinin, məktəb rəhbərliyinin və məhdud sayda müəllimin iştirakı ilə keçirilməsi;

- 11-ci sinif şagirdlərinin sayı 100-dən çox olan ümumi təhsil müəssisələrində iki mərhələdə günün müxtəlif vaxtlarında keçirilməsi.



Eyni zamanda bildirilir ki, tədbirin qapalı məkanlarda (akt zalları, idman zalları, sinif otaqları, məktəbin foyesi və s) təşkil edilməsinə və tədbirdə valideynlərin iştirakına icazə verilmir.

**Aynurə**

# Hədəfə çox az qalıb

## Bakıda heç bir qanunsuz ət kəsim məntəqələrinə rast gəlməyəcəyik




Azərbaycanda insanlar qidasında mal, qoyun kimi heyvanların ətinə xüsusi önəm verirlər. Əhalinin sağlam qida məhsulları ilə təmin olunmasında heyvan kəsimi məntəqələrinin və bu istiqamətdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin üzərinə böyük məsuliyyət düşür.

Bu məsuliyyətdən irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün heyvan kəsimi məntəqələrinin qida təhlükəsizliyi tələblərinə, gigiyenik norma və qaydalara uyğun fəaliyyət göstərməsi zəruri şərtlərdəndir. Buna görə də daim dövlətimiz tərəfindən heyvan kəsiminin fəaliyyətinin tənzimlənməsi ilə bağlı işlər görülür. Qeyd edək ki, "Heyvan kəsimi fəaliyyətinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 11 iyun tarixli 199 nömrəli Sərəncamının icrası ilə bağlı olaraq baytarlıq-sanitariya və sanitariya-gigiyena normalarına cavab verməyən yerlərdə, küçələrdə, yol kənarlarında satış məqsədi üçün heyvan kəsimi hallarının qarşısının alınması istiqamətində Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi (AQTA) aidiyyəti dövlət orqanları ilə birlikdə ardıcıl monitorinqlər, yoxlama-nəzarət tədbirləri həyata keçirir. Çox təəssüf ki, aparılan müntəzəm yoxlama-nəzarət zamanı qanunsuz heyvan kəsimi fəaliyyəti ilə bağlı aşkar olunmuş faktlar üzrə məlumatlar agentlik tərəfindən müvafiq tədbirlərin görülməsi üçün yerli icra hakimiyyəti orqanlarına göndərilsə də, bir sıra heyvan kəsimi məntəqələri qanunsuz fəaliyyətini hələ də davam etdirməkdədir. Belə ki, 2021-ci il 7-10 iyun tarixlərində Bakı şəhərinin Nərimanov və Suraxanı rayonları üzrə keçirilən monitorinqlər zamanı sanitar-gigiyenik norma və qaydalara əməl olunmadan fəaliyyət göstərən 10 heyvan kəsimi və ət satışı məntəqələrinə dəfələrlə rəsmi xəbərdarlıq edilməsinə və inzibati tədbirlər görülməsinə baxmayaraq, onlardan bəzilərinin qanunsuz fəaliyyəti davam etdirdikləri aşkar olunub.

**Məsələ ilə bağlı "Şərq"ə danışan Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov bildirib ki, yaxın gələcəkdə bu sahədə mühüm addımlar atılacaq. O qeyd edib ki, ilk növbədə heyvanların identifikasiyası həyata keçiriləcək:** "Qanunsuz heyvan kəsimi məntəqəsinin fəaliyyətinin qarşısı alınması istiqamətində daim dövlətimiz tərəfindən bir sıra işlər görülür. Lakin hədəflərə çatmağa çox az, ən azı 3 il qalıb. Çünki heyvanların identifikasiyası həyata keçiriləcək. Qeyd edim ki, başqa ölkələrdə olduğu kimi heyvan dünyaya gələndən son anına qədər gücləndirilməlidir. Buna heyvanların identifikasiyası deyilir. Bu işə inzibati yollarla nail olmaq çox çətindir. Birincisi, istehlakçılar elə yerləri baykot eləməlidirlər. Lakin təəssüflər olsun ki, istehlakçılar gözləri gördüyü əti almaq istəyirlər. Çox təəssüflər olsun ki, ölkəmizdə identifikasiya hələ bir faiz də həyata keçirilməyib. Ancaq qeyd edim ki, bu işlər sürətlə həyata keçirilməkdədir. Düşünürəm ki, heyvanların identifikasiyası həyata keçiriləndən sonra belə məsələlər həll olunacaq".

**Aynurə Pənahqızı**

## Bəzi özəl klinikalar vaksinasiya adı ilə pul yığır

### Adil Qeybulla: "...Bu, təbiidir"



**"Bakıdakı özəl klinikalarda COVİD-19-a qarşı vaksinasiya olunmaq istəyən vətəndaşlardan pul alınması ilə bağlı xəbərlər alıram. Bu pulu "təzyiq ölçmək haqqı" kimi alırlar. Halbuki, Azərbaycanda vaksinasiya könüllüdür və tamamilə pulsuz həyata keçirilir".**

Bu sözləri jurnalist Elçin Alıoğlu deyib.

**ATU-nun professoru Adil Qeybulla "Şərq"ə açıqlamasında iddialara belə münasibət bildirib:** "Əvvəla, bütün yox, bəzi özəl klinikalarda belə ola bilər. Həm də bu, təbiidir. Vaksinasiya ancaq dövlət klinikalarında dövlət hesabına aparılır. Əsas məsələ bundan ibarətdir ki, niyə vətəndaşlar dövlət yox, özəl klinikalara gedirlər?".

**Kənan**

## Nəhayyət koronavirusdan ölüm halı olmadı

### 73 yeni yoluxma faktı qeydə alınıb, 287 nəfər sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 73 yeni yoluxma faktı qeydə alınıb, 287 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19-dan ölüm faktı qeydə alınmayıb.

İndiyədək ölkədə ümumilikdə 335065 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 328194 nəfər müalicə olunaraq sağalıb, 4951 nəfər vəfat edib, aktiv xəstə sayı 1920 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 8515, ötən müddət ərzində isə ümumilikdə 3606364 test aparılıb.




## Rayonlararası sərnişin avtobusları həftəsonları işləyəcək

**Azərbaycanda müntəzəm marşrut xətləri ilə şəhərlərarası və rayonlararası sərnişindaşımalar bütün həftəsonları sərnişinlərin xidmətində olacaq.**

"APA-Economics" xəbər verir ki, bu barədə Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin (DANX) mətbuat katibi Nuridə Allahyarova deyib.

Onun sözlərinə görə, bunun üçün sərnişinlərdən bilet alarkən COVID-19 pasportu tələb olunmur: "Lakin bu, o demək deyil ki, sərnişinlərin ilkin müayinəsi aparılmayacaq. Özündə hər hansı nasazlıq hiss edən sərnişin yaxşı olar ki, bilet almasın. Sərnişinlər biletləri onlayn və ya avtovağzalın kassalarından əldə edə bilərlər".

DANX-ın rəsmisi həmçinin əlavə edib ki, hazırda Bakı Beynəlxalq Avtovağzal Kompleksində kifayət qədər sərnişin axını var və bu axın tam idarə olunur.

"Sərnişinlər istədikləri regionlara normal, müntəzəm marşrut xətləri ilə gedə bilirlər", - deyə N. Allahyarova əlavə edib.

## Bakıda kütləvi dava olub

**Bakının Binəqədi rayonu ərazisində kütləvi dava olub.**

APA-nın məlumatına görə hadisə 7 mikrorayonun Abay Kunanbayev küçəsində qeydə alınıb.

Dava zamanı ağır xəsarət və ölüm faktı qeydə alınmayıb.

## Bakı metrosu iyunda hər gün işləyəcək

### Gecə saat 02:00-a qədər metropoliten sərnişindaşıma fəaliyyəti göstərəcək



**"Bakı Metropoliteni" QSC-nin stansiyaları iyun ayı ərzində hər gün sərnişindaşıma fəaliyyəti göstərəcək.**

QSC-dən verilən məlumata görə, metro sərnişinləri ay ərzində metropolitendən rahat istifadə edəcəklər. Matçlar başa çatandan sonra gecə saat 02:00-a qədər metropoliten sərnişindaşıma fəaliyyəti göstərəcək. Avropa çempionatına akkreditə olunmuş şəxslər Bakı metropolitenindən gediş haqqı ödəmədən və müvafiq vəsiqəni təqdim edərək istifadə edə biləcəklər.

Gücləndirilmiş iş rejimi qaydasında çalışan metropolitendə müvafiq rəhbər və mütəxəssis heyətindən ibarət operativ mərkəzlər fəaliyyət göstərəcək. Onların fəaliyyəti əsas qərargahdan idarə olunacaq. Müvafiq dövlət strukturları və yarışın təşkilat komitəsi ilə sıx əlaqəli şəkildə Bakı Olimpiya Stadionunun yaxınlığında yerləşən "Koroğlu" stansiyasına giriş-çıxışın tənzimlənməsi təmin olunacaq. Tədbirlər planına uyğun olaraq, ehtiyat qatarlar xəttə çıxarılmağa hazır olacaq. "Koroğlu" stansiyasında sərnişinlərin yönləndirilməsinə zərurət yaranarsa, səsucaldanlardan istifadə ediləcək.

Oyunların keçirildiyi günlərdə metropolitenin 7 stansiyasında ("İçərişəhər", "Sahil", "28 May", Gənclik", "Nəriman Nərimanov", "Koroğlu" və "Nizami") könüllülər fəaliyyət göstərəcək. Onlar üzərində "Ask me" yazılmış xüsusi geyimlərdə olacaq və qonaqları məlumatlandıracaq, yaranan suallaların cavablandırılmasını təmin etmək üçün metropolitençilərə dəstək verəcəklər.

**Yeganə**



## Mingəçevirdə kanalda batan şəxsin meyiti sudan çıxarılıb

**Mingəçevir ərazisində Yuxarı Qarabağ su kanalında batan şəxsin axtarış işləri yekunlaşıb.**

Axtarışları aparılan 2006-cı il təvəllüdlü Əzizov Elvin Sənan oğlunun meyiti saat 19:15 radələrində Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-axtarış qrupu tərəfindən tapılaraq aidiyyəti üzrə təhvil verilib.

Fövqəladə Hallar Nazirliyi Mingəçevirdə kanalda batan şəxslə bağlı məlumat yayıb.

"Şərq"in nazirliyin saytına istinadən verdiyi məlumata görə, FHN-in "112" qaynar telefon xəttinə 11.06.2021-ci il tarixində axşam saatlarında 1 azyaşlının (şəxsiyyəti dəqiqləşdirilir) Yuxarı Qarabağ su kanalına (Mingəçevir şəhəri ərazisi) düşməsi barədə məlumat daxil olub. Məlumat qəbul edildikdən dərhal sonra FHN-in Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-axtarış qrupu kanala düşmüş şəxsin axtarışlarına cəlb olunub.

# Avrasiyada yeni əməkdaşlıq platformasının əsası qoyulur

*Çin-Azərbaycan münasibətləri hər iki ölkənin milli maraqlarına cavab verir*



"XXI əsrdə yeni dünya düzəninin reallıqları milli dövlətlər üçün çoxşaxəli əməkdaşlıq münasibətlərinin inkişafını zəruri edir. Bu kontekstdə geostrateji güc mərkəzlərinin siyasi-iqtisadi əlaqələrini möhkəmləndirməsi xüsusi əhəmiyyət kəsb etməkdədir.

Bu baxımdan, Azərbaycan-Çin münasibətlərinin inkişaf dinamikası Avrasiyada geostrateji proseslərə təsir edəcək mühüm amildir".

**Bu fikirləri ”Şərq”ə açıqlamasında politoloq Nurlan Qələndərli deyib. Politoloq bildirib ki, regional supergüc olan Çinlə Azərbaycan əməkdaşlığa mühüm önəm verir:** ”Çin də öz növbəsində Cənubi Qafqazın ən güclü aktoru olan, regional və beynəlxalq təhlükəsizliyə mühüm töhfələr verən Azərbaycanla münasibətlərin inkişafını əhəmiyyətli hesab edir. Çin Avrasiyanın yeni enerji və nəqliyyat xəritəsini yaradan Azərbaycanın ”Bir kəmər bir yol” təşəbbüsünün reallaşdırılması istiqamətində vacib tərəfdaş kimi dəstəyini yüksək qiymətləndirir. Yeri gəlmişkən, iyunun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri Si Cinpin arasında baş tutan telefon söhbəti zamanı ifadə olunan fikirlər iki ölkənin müxtəlif sahələrdə qarşılıqlı faydalı münasibətlərin inkişafında və daha da möhkəmləndirilməsində maraqlı olduqlarını göstərir”.

*Nurlan Qələndərlinin sözlərinə görə, Çin-Azərbaycan münasibətləri hər iki tərəfin milli-strateji maraqlarına cavab verməklə yanaşı, Avrasiyada yeni əməkdaşlıq platformalarının formalaşmasına zəmin yaradır:* ”Siyasi, iqtisadi, nəqliyyat-logistika sahələrində uğurla əməkdaşlıq edən hər iki ölkənin ənənəvi dostluğu inkişaf etdirməsi, əməkdaşlığı dərinləşdirməsi və qarşılıqlı dəstəyi artırması tərəflər üçün vacib əhəmiyyətə malikdir. Bununla yanaşı, Avrasiyada strateji inteqrasiyanın sürətlənməsinə töhfə ola bilər. Xüsusilə də, Azərbaycan ilə Çinin ”Bir kəmər bir yol” layihəsinin inkişafı çərçivəsində fəaliyyətlərin birgə əlaqələndirilməsi və mövcud imkanlardan faydalanması yeni siyasi-iqtisadi dividendlər vəd edir”.

**Aynurə Pənahqızı**



## "Putinə xoş arzularımı çatdırın"

Tramp Co Baydenə məsləhət verdi

**ABŞ-ın keçmiş prezidenti Donald Tramp öz varisi Co Baydenə Rusiya lideri Vladimir Putinlə görüşdə uğurlar arzulayıb.**

Bu barədə ”Şərq” ”RİA Novosti”yə istinadən xəbər verir. Tramp deyib: ”İclasda ayıqsayıq olun və Putinə ən xoş arzularımı çatdırın”.

*Xatırladaq ki, tərəflər arasında görüş iyunun 16-da keçiriləcək.*

**Kənan**

## Ermənistan boşalır

Mübariz Əhmədoğlu: “Aviareyslər açılandan sonra ölkəni tərk edənlərin sayı lap çox olacaq”



**Ermənistanda növbədənkənar parlament seçkiləri kampaniyası dövründən əsas mövzulardan biri də emiqrasiyadır.**

Rəsmi statistikaya əsasən, müstəqilliyin əldə edilməsindən sonra ölkənin əhalisi yarım milyon - rəsmi olaraq 553 000 nəfər azalıb. Qeyd edilir ki, hazırda ölkə əhalisi 2,9 milyon nəfər təşkil edir. Təbii, bu say yalnız miqrasiyanın həcmini əks etdirmir, həm də əhalinin mənfi təbii artımının göstəricisidir.

Ermənistanın Baş naziri vəzifəsini icra edən Nikol Paşinyanın sözlərinə görə, İkinci Qarabağ müharibəsinin gedişatında ölənlərin sayı təxminən 3 700 nəfər təşkil edib. 2020-ci il ərzində emiqrasiya haqqında məlumatlara gəlincə, sərhədlərin bağlı olması səbəbindən bu göstərici praktik olaraq sıfır idi.

Amma rəsmi məlumata görə, cari ilin yanvar-mart aylarında Ermənistanı 127 338 vətəndaş tərk edib, ölkəyə 63 625 nəfər gəlib. Beləliklə, üç ay ərzində ölkədən 63 713 nəfər həmişəlik gedib.

Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu Ermənistandakı daxili vəziyyət barədə ”Şərq”ə danışıb: ”Narazılıq təkcə seçkilərlə bağlı yox, həm də siyasi elita ilə bağlıdır. Emiqrasiya daxildə baş verənlərə, o cümlədən uydurmalara, miflərə olan reaksiyadır. Yerli əhali artıq öz davranışını müəyyənləşdirib. Bir azdan, aviareyslər açılandan sonra ölkəni tərk edənlərin sayı lap çox olacaq. Hələlik pandemiya buna mane olur”.

**Kənan**

# Bakıda Rusiya vətəndaşı girov götürülüb



*Pul qoparmaq üçün dayısı oğlunu oğurladı*

İyunun 8-də DİN-nin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə Rusiya Federasiyasının vətəndaşı Mirhəsən Seyidovun naməlum şəxslər tərəfindən oğurlanması və azad edilməsi müqabilində 500 min ABŞ dolları məbləğində pulun tələb edilməsi barədə müraciət daxil olub.

Bu barədə Baş Prokurorluq və Daxili İşlər Nazirliyi birgə məlumat yayıb.

Qeyd edilən müraciətlə əlaqədar aparılmış araşdırma zamanı müəyyən edilib ki, həmin gün saat 16 radələrində Rafiq Hüseynov tanışı Anar Mehdiyevlə qabaqcadan əlbir olub Rusiya Federasiyasında biznes fəliyyəti ilə məşğul olan dayısı Mirəkbər Seyidovdan xüsusilə külli miqdarda pul tələb etmək məqsədilə sonuncunun oğlu Mirhəsən Seyidovu Bakı şəhəri Ramana qəsəbəsində yerləşən evinə dəvət edib.

Birlikdə yemək yedikdən sonra isə Mirhəsən Seyidovun əllərini və ayaqlarını yapışqanlı lentlə oturaq vəziyyətdə bağlayıb faktiki öz iradəsinə zidd qanunsuz azadlıqdan məhrum etməklə mobil telefonla fotoşəklini çəkərək dayısı Mirəkbər Seyidova göndərib. Seyidovdan oğlunun azad edilməsi müqabilində 500 min ABŞ dolları məbləğində pul vəsaitini tələb edib.

Faktla bağlı Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin 145.2.4 (qanunsuz azadlıqdan məhrum etmə, bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə), 182.2.1 (hədə-qorxu ilə tələb etmə qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) və 182.4-cü (hədə-qorxu ilə tələb etmə xüsusilə külli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə) maddələri ilə cinayət işi başlanıb.

Dünən Anar Mehdiyev və Rafiq Hüseynov CM-nin qeyd edilən maddələri ilə şübhəli şəxs qismində tutularaq istintaqa cəlb ediliblər. Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir. Nəticəsi barədə ictimaiyyətə ətraflı məlumatın verilməsi təmin ediləcək.

**Yeganə**



## Bayden Consona velosiped və dəbilqə hədiyyə edib

**G7 sammitinə qatılmaq üçün Karbis-Bey şəhərinə gedən ABŞ prezidenti Co Bayden Britaniyanın Baş naziri Boris Consonla görüşdə ona Amerika istehsalı olan velosiped və dəbilqə hədiyyə edib.**

APA TASS-a istinadən xəbər verir ki, bu barədə PA agentliyi məlumat yayıb.

Öz növbəsində, tez-tez velosipedlə gəzən Conson amerikalı qaradərili hüquq müdafiəçisi Frederik Duqlasın şərəfinə Edinburqda çəkilmiş bir divar şəklini Baydenə verib. Bu rəsm əsəri rəssam Ross Bler tərəfindən hazırlanıb və amerikan-ingilis fotoqraf Melissa Hayton tərəfindən çəkilib. Duqlasın 1840-cı illərdə İngiltərəni ziyarət etdiyi qeyd olunur.

Agentlik xəbər verir ki, səfərdə iştirak edən, Ağ Ev rəhbərinin xanımı Cill Bayden ingilis yazıçısı Dafne dyu Moryenin ”Alma ağacı” hekayələr toplusunun ilk nəşrini hədiyyə alıb. Öz növbəsində, mayın 29-da britaniyalı baş nazirlə ailə həyatı quran Kerri Conson ABŞ hərbi personalının arvadları tərəfindən hazırlanan dəri çantanın və prezidentin ipək şərfinin sahibi olub.

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (MEDİA) fərdi jurnalist müsabiqəsinin keçirilməsi barədə elan verib. Bu müsabiqə əvvəlki müsabiqələrdən bir çox amillərinə görə diqqət çəkib. Medianın İnkişafı Agentliyinin (MEDİA) Media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri Natiq Məmmədli Trend-ə müsahibəsində agentliyin jurnalistlər üçün elan etdiyi müsabiqənin yeni şərtlərindən və üstünlüklərindən danışıb. N.Məmmədli qeyd edib ki, jurnalistlərin fərdi bilik və bacarıqlarının inkişaf etdirilməsi, potensiallarının üzə çıxarılması MEDİA Agentliyi üçün prioritet təşkil edir.



# MEDİA-nın yönü hayanadır?

## *Jurnalist əməyi stimullaşdırılır*

Bunun üçün elə meyarlar və prinsiplər əsasında müsabiqə həyata keçirmək istəyirik ki, jurnalist həmkarlarımızın yaradıcı əməyi layiqincə qiymətləndirilsin, eyni zamanda haqsız rəqabət hallarına, digər subyektiv nüanslara yol verilməsin. O diqqətə çatdırıb ki, bu vaxta qədərki təcrübəni nəzərdən keçirərək tamamilə yeni mexanizmlər təklif etdik: "Birinci növbədə, jurnalist yaradıcılığını məhdudlaşdıran bütün amillər aradan qaldırıldı. Agentlik hər hansı material hazırlamaq üçün sifariş vermir, əksinə, jurnalistin özünün seçimi əsasında müsabiqə elan olunan günə qədərki son üç ay ərzində işıq üzü görmüş istənilən materialını təqdim etmək sərbəstliyini dəstəkləyir. Jurnalist öz işini yalnız müsabiqə şərtlərinə uyğun qurmur, şərtlər jurnalistin yaradıcı sərbəstliyinə uyğunlaşdırılır. İkincisi, müsabiqənin nominasiyaları praktik jurnalistikadan çıxış edərək müəyyənləşib ki, bu da mediamızın ümumi intellektual mənzərəsini yaratmağa imkan verəcək. Bu vaxta kimi bütün media subyektlərində çalışan həmkarlarımızın hamısının qatılıb faydalana biləcəyi müsabiqə formatı olmayıb. İndi isə qəzet və veb-sayt müxbirindən tutmuş - televiziya operatoruna kimi, bütün əməkdaşların iştirakına nail olmuşuq. Təqdim olunmuş materiallar ekspertlər tərəfindən qiymətləndirildikdən sonra 10 nominasiyanın hər biri üzrə 5 nəfər olmaqla qəzet və onlayn media subyektlərinin 50 əməkdaşı, audiovizual media üçün nəzərdə tutulmuş 5 nominasiyanın hər biri üzrə 4 nəfər olmaqla 20 əməkdaş qalib elan olunacaq".

*Qiymətləndirmə meyarlarına gəlincə, N.Məmmədli qeyd edib ki, eyni materialın üç fərqli ekspert tərəfindən fərdi qaydada iyirmi ballıq sistemlə qiymətləndirilməsi aparılacaq və bu zaman qeyd etdiyimiz kimi, müəllif yanaşmasındakı orijinallığa önəm veriləcək. Müsabiqənin şərtləri əlçatandır, lakin bu, jurnalistin məsuliyyətini azaltmır:* "Müsabiqəyə material təqdim olunarkən nəzərə alınmalıdır ki, onların hamısı ekspert qiymətləndirilməsindən keçəcək. Bu zaman materialın jurnalistikanın ümumi prinsiplərinə uyğunluğu, üslubi keyfiyyətləri, dilin norma və qaydalarına əməl olunmasına fikir veriləcək. Materialın maarifləndirici əhəmiyyəti də qiymətləndirmə meyarları sırasında vacib amillərdən biridir".

Yeniliklər bağlı media nümayəndələrinin də fikirlərini öyrəndik.

**Əməkdar jurnalist Elman Babayev "Şərq"ə açıqlamasında vurğulayıb ki, hazırda MEDİA Agentliyindən gözləntilər olduqca böyükdür. O qeyd edib ki, əvvəl mövcud olan qurumun, KİVDF-nin bazasında yaradılan agentliyin mətbuatın inkişafına hansı töhfə verəcəyi cəmiyyətin diqqət mərkəzindədir:** "Qurum yenidir və onun ümumi fəaliyyətinə indidən dolğun qiymət vermək bir qədər çətindir. MEDİA Agentliyindən əvvəl mövcud olan KİVDF də fərdi jurnalist müsabiqələri keçirirdi. Yəni məsələyə bu kontekstdən yanaşsaq, bu qəbildən olan müsabiqələrin keçirilməsi yenilik deyil. Amma şərtlərdə ciddi müsbət yeniliklər var və həmin yenilikləri təqdir edirəm. Əsas hədəf kimi jurnalistlərin yaradıcı əməyinə layiqli qiymət vermək, subyektiv nüansların qarşısını almaq seçilib. Ən böyük gözlənti də odur ki, müsabiqəyə təqdim olunan yazılara obyektiv qiymət verilsin. Mənim fikrimcə, Agentlikdə mətbuatda illərdir işləmiş, imzası ilə tanınan Natiq Məmmədli, Rüstəm Əbülfətoğlu kimi şəxslərin təmsil olunması hansısa neqativ halların müşahidə edilməsini mümkünsüzləşdirəcək. Hər halda şəxsən mənim buna inamım tamdır. Media Agentliyi ilk müsabiqədə tamamilə yeni mexanizmlərlə çıxış edib. Əvvəlki təcrübə, yəni müsabiqəni keçirən qurumun hər hansı material hazırlamaq üçün sifariş verməsi aradan qalxıb. Jurnalist özünün seçimi əsasında müsabiqəyə yazı təqdim edəcək. Beləliklə, jurnalistin yaradıcı sərbəstliyi təmin olunub".

*E.Babayev diqqətə çatdırıb ki, müsabiqəyə bütün media subyektlərində çalışan jurnalistlərin qatılmasına şərait yaradılıb və bu da müsbət addımdır:* "Qeyd edim ki, eyni zamanda, regionlarda çalışan, habelə idman jurnalistlərinin fərdi müsabiqələrdə iştirakına yaşıl işıq yandırılıb.

## İndi bir nəfər 5 nəfərin adından yazı yazıb təqdim edə bilməyəcək

Bundan başqa, müsabiqəyə təqdim olunacaq materialların qiymətləndirmə meyarlarında da dəyişikliklər edilib. Ümumi mənzərə budur ki, müsabiqənin şərtləri daha əlçatan olub. MEDİA Agentliyi paralel olaraq jurnalistin yaradıcı məsuliyyətini azaltmayan mexanizmlər işləyib. Agentlik bu yeniliklərlə həm də jurnalistikanın canlanmasına, müasir oxucunun tələbatına cavab verən mühitin yaranmasına töhfə verməyi hədəfləyib. Qalır gözləmək. Yeni yanaşma ilə elan edilən fərdi müsabiqənin nə dərəcədə effektli olması, hədəflərinə çatmasını zaman göstərəcək".

**Moderator.az-ın şef redaktoru Xəyalə Rəis "Şərq"ə qeyd edib ki, bu dəfə elan olunan müsabiqə jurnalistlərimizin fərdi bilik və bacarıqlarının inkişaf etdirilməsi, potensiallarının üzə çıxarılması istiqamətində baş tutacaq. Belə ki, MEDİA Agentliyi üçün bu nüanslar əsas meyardır:** "Şərtlərlə tanış olduqda belə anladım ki, burada haqsız rəqabət hallarına, digər subyektiv nüanslara yol verilməyəcək. Bu dəfə rəhbərliklərin tapşırdıqları və özəl, digər məsələlərdən özlərinə yaxın hiss etdikləri jurnalistlər deyil, daha peşəkar yazı təqdim edən media nümayəndələri qiymətləndiriləcək. Yeni qaydalarda jurnalist yaradıcılığını məhdudlaşdıran bütün amillərin aradan qaldırıldığının şahidi oluruq. Qeyd olunan şərtlər onu göstərir ki, jurnalistin özünün seçimi əsasında müsabiqə elan olunan günə qədərki son üç ay ərzində işıq üzü görmüş istənilən materialını təqdim etmək sərbəstliyini dəstəkləyir. Jurnalist öz işini yalnız müsabiqə şərtlərinə uyğun qurmur, şərtlər jurnalistin yaradıcı sərbəstliyinə uyğunlaşdırılır. Yəni biz artıq yalnız müsabiqədən müsabiqəyə yeni imzalarla tanış olmayacağıq. Digər tərəfdən əvvəllər hər dəfə eyni mövzular təqdim olunurdusa, bu dəfə müsabiqənin nominasiyaları praktik jurnalistikadan çıxış edərək müəyyənləşib ki, bu da mediamızın ümumi intellektual mənzərəsini yaratmağa imkan verəcək. Bu vaxta kimi bütün media subyektlərində çalışan həmkarlarımızın hamısının qatılıb faydalana biləcəyi müsabiqə olacağına ümid edirəm".

*X.Rəis bildirib ki, bu şərtlər rəhbərlikləri seçdiyi insanlar deyil, peşəkarlıq ön plana çəkiləcək:* "Eyni zamanda bir nəfər 5 nəfərin adından yazı yazıb təqdim edə bilməyəcək. Çünki agentliyin təqdim etdiyi yeni sistemdə artıq hər kəsin bir profili formalaşacaq və hər kəs yalnız bir yazı ilə müraciət edə biləcək. Bu yeniliklər bir növ agentlikdə jurnalistlərin elektron bazası da formalaşacaq. Bu isə gələcəkdə vahid press kartın və digər problemlərin həllini asanlaşdıracaq".

**"Azxeber.com" saytının baş redaktoru Hacıbəy Heydərli "Şərq"ə açıqlamasında qeyd edib ki, elan olunan yeni müsabiqə şərtləri gələcəkdə Azərbaycanın media mühitində rəqabətin güclənməsinə təkan verəcək:** "İlk olaraq qeyd edim ki, Media İnkişaf Agentliyinin yaradılması Azərbaycanda islahatların yeni mərhələsidir. Bildiyiniz kimi, Azərbaycanda hər sahədə islahatlar gedir və mətbuatımız da bundan geri qala bilməzdi. Məhz Media İnkişaf Agentliyi yaradılması da məhz bu istiqamətdə atılan mühüm addımlardan biri idi, yəni sözün əsl mənasında islahatlara verilən bir dəstəkdir. Təbii ki, agentlikdən yeniliklər gözlənilirdi. Yeni müsabiqə şərtlərində isə bir çox diqqətə çəkən yeniliklər var. Bunlardan biri Azərbaycanda gündəmə təsir edən, dünyanı formalaşdıran internet media subyektlərinin də bu müsabiqədə iştirak edə bilməsidir. Təbii ki, bunu jurnalistlərin stimullaşdırması baxımından çox mühüm addım kimi qiymətləndirmək olar. Son üç ayda yazılan yazıların müsabiqədə ön plana çıxarılması isə fikrimcə, çox mühüm və önəmli amillərdən biridir. Çünki bu artıq həm jurnalistlərin peşəkarlaşmasına, həm də onların gündəlik işlərində yazdıqları yazıya xüsusi diqqət göstərməyinə də təsir edəcək. Yəni hər bir jurnalist bundan sonra yazdığı yazıya xüsusi peşəkarlıqla yanaşacaq. Təbii ki, bu da çox önəmli faktordur. Çünki bu, Azərbaycan media mühitində rəqabətin güclənməsinə və oxuculara keyfiyyətli materialların təqdim olunmasında yardımçı olacaq. Eyni zamanda, göstərilən istiqamətlər onu göstərir ki, artıq Azərbaycan mətbuatında jurnalistlərin peşəkarlıq meyarının artması ön plana çəkiləcək. Bildiyimiz kimi, 44 günlük Vətən müharibəsindən sonra bu gün də informasiya müharibəsi davam edir. Bu günləri Azərbaycan jurnalistlərinin daha çox xarici dil biliyinin artırılması və beynəlxalq mediaya inteqrasiyası çox önəmli amildir. Media İnkişaf Agentliyinin də keçirdiyi layihələr, proyektlər onu göstərir ki, onlar da bu məsələyə çox həssas yanaşırlar".

*H.Heydərli vurğulayıb ki, saytların media orqanlarının maddi-texniki bazasının formalaşması istiqamətində də atılan addımlar mühümdür. Çünki bu onun göstəricisidir ki, Azərbaycan mediasına sözün əsl mənasında diqqət göstərilir:* "Bu müsabiqənin daha önəmli cəhəti odur ki, bundan əvvəlki müsabiqələrdə yalnız elan olunan mövzularla bağlı müəyyən mükafatlar elan olunurdu. Həmçinin əvvəlki müsabiqələrdə daha çox sayt, qəzet rəhbərləri ön plana çıxırdısa, bu dəfəki fərdi jurnalist müsabiqəsində müxbirlərin, xüsusən də operatorların əməyi ön plana çıxarılır. Bu isə sözün əsl mənasında bir yenilik kimi qələmə verilə bilər. Bu baxımdan düşünürəm ki, bu şəxslərin də ön plana çıxarılması və onların stimullaşdırılması Media İnkişaf Agentliyinin yeni media istiqamətində atacağı addımların bünövrəsinin göstəricisidir".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Yoluxma riski hələ qalır



## *“Mall”lar fəaliyyətini bərpa etdi, məsuliyyət artırılmalıdır*

Artıq ölkədə iri ticarət mərkəzləri və "Mall"lar fəaliyyətini bərpa edib. Qeyd edək ki, Nazirlər Kabineti "Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə" qərar verib.

Azərbaycanda karantin rejiminin yumşaldılmasından sonra məscid və idman zalları ilə yanaşı, ”Mall”lar da fəaliyyətini bərpa edib. Xatırladaq ki, ”Mall”ların fəaliyyəti 23 mart 2020-ci il tarixdə saat 00:00-dan etibarən dayandırılmışdı. Qərara əsasən, 10 iyun saat 00:00-dan iri ticarət mərkəzlərinin (nəzdindəki uşaq və digər əyləncə mərkəzlərinin, kinoteatrların fəaliyyəti istisna olmaqla) fəaliyyəti bərpa edilib. İnsanlar artıq tibbi maska taxmaq və sosial məsafəni gözləməklə iri ticarət mərkəzlərinə gedə biləcəklər.

**”Mall”ların açılması ilə bağlı Jurnalist Araşdırmalar Mərkəzinin rəhbəri, ”Yenisabah.az” saytının baş redaktoru Seymur Verdizadə ”Şərq”ə fikirlərini bölüşüb:** ”Fikrimcə, dövlət məsuliyyəti cəmiyyətlə bölüşməlidir. Təbii ki, yoluxma təhlükəsi həmişə var. Buna görə də insanlar mütləq bunun fərqində olmalıdır. Virus ölkəmizdə aşkarlanan gündən onunla bağlı dövlətimiz tərəfindən müxtəlif təbliğatlar aparılır. Həmçinin, mütəxəssislər vətəndaşlara səslənir və qorunma yollarını göstərir. Hesab edirəm ki, bəzi insanlar gözlərini dörd açmalı, qulaqlarındakı pambığı çıxarmalıdırlar. İnsan balıq deyil ki, akvariumda yaşasın. Axı biz virusa görə cəmiyyətdən tamamilə təcrid oluna bilmərik. Buna görə də bir az məsuliyyətli olaq. Sadəcə özümüzə azca əziyyət verib, tövsiyələrə əməl edək, xüsusən də, gigiyenik qaydalara. Qeyd edim ki, peyvənd olunan vətəndaşların sayına görə Azərbaycan MDB məkanında birinci yeri tutur. Bu fakt yoluxma riskini nisbətən azaldır”.

*S.Verdizadə hesab edir ki, əgər , ”Mall”lar qaydalara uyğun fəaliyyət göstərsə, o zaman yoluxma riski də minimuma enəcək:* ”İlk olaraq qeyd edim ki, ”Mall”ların işləməsiylə bağlı müəyyən təlimatlar var. Sahibkarlardan o təlimatlara əməl etməyi tələb etməliyik. Yəni ”Mall”lar qaydalara uyğun fəaliyyət göstərsə, yoluxma riski minimuma enəcək. Amma yenə o fikirdəyəm ki, vətəndaş özü öz sağlamlığının qeydinə qalmalıdır. ”Allah bilən məsləhətdir” düşüncəsiylə hərəkət etmək olmaz!”.

**Aynurə**



## Azərbaycanın 55 şirkətinə yaşıl işıq...

### Dəmir yolu ilə Rusiyaya pomidor və alma ixrac edə biləcəklər

**Azərbaycanın 55 şirkəti dəmir yolu ilə Rusiyaya pomidor və alma ixrac edə biləcək.**

Rusiyanın Baytarlıq və Fitosanitar Nəzarəti üzrə Federal Xidmətinin (”Rosselxoznadzor”) qəbul etdiyi qərara əsasən, iyunun 15-dən Azərbaycanın 55 şirkəti dəmir yolu ilə qonşu ölkəyə pomidor və alma ixrac edə biləcək.

”Report” bu barədə ”Rosselxoznadzor”a istinadən xəbər verir.

Məlumata görə, bunlardan 31-i pomidor, 24-ü isə alma istehsalı üzrə fəaliyyət göstərən müəssisələrdir.

*Qərar Azərbaycanın Qida Təhlükəsizliyi Agentliyinin təqdim etdiyi sənədlər və verdiyi zəmanət əsasında qəbul olunub. Mal ixracı fitosanitar sertifikatlar əsasında baş tutacaq. Oktyabrın 1-dən isə Azərbaycandan Rusiyaya ixrac konteynerlərlə həyata keçiriləcək.*

# Bir şagirdin də taleyi ilə oynamaq olmaz

## *Növbəti tədris ilində peyvənd olunmayan müəllimlər sinifə buraxılmayacaq*

İnsanın şəxsiyyət kimi formalaşmasında, onun təhsil və inkişafında müəllimin rolu danılmazdır. Bütün dövrlərdə müəllim peşəsinin əhəmiyyəti, şərəfliliyi, yüksəkliyi barədə müdrik kəlamlar söyləyiblər. Dahi Nizamiyə görə təhsilin köməyilə insanlar təbiətin və insan mənəviyyatının sirlərini öyrənə bilər. Müxtəlif dövrlərdə yaşamış müdriklərin müəllim haqqında deyimləri göstərir ki, dövründən asılı olmayaraq, həmişə əsl müəllim milli sərvət kimi qəbul edilib.

Cəmiyyətin gələcək inkişaf mərhələlərində yeni dəyərlərin yaranmasında onların rolu danılmazdır. Lakin çox təəssüf ki, artıq bir müddətdir ki, ölkəmizdə ənənəvi təhsil sistemində dərslər tədris olunmur. Bildiyimiz kimi, bunun da başlıca səbəbi koronavirus pandemiya ilə əlaqədardır. Bu günləri yenidən əvvəlki ənənəvi qaydada tədrisin bərpası üçün insanların vaksinasiya olunması mühümdür. Lakin bir çox insanlar peyvənd olunmaqda maraqlı deyillər. Çox təəssüf ki, cəmiyyətin aparıcı qüvvəsi olan müəllimlərin də vaksinasiyadan imtina edənlər arasında olması çox üzücüdür. Ötən gün bu barədə Təhsil naziri Emin Əmrullayev feysbuk üzərindən təşkil olunan canlı yayımda deyib. O qeyd edib ki, Bakı şəhəri üzrə 38 min 185 müəllimdən 24 min 502 nəfəri vaksin olunub. Ümumilikdə 4 min 620 müəllim virusa yoluxduğunu, 3400 nəfərin müxtəlif səbəblərdən vaksin olunmadığını və 2500 müəllimin isə vaksindən imtina etdiyini diqqətə çatdırıb. Bəs görəsən, vaksindən imtina edən 2500 müəllimin aqibəti necə olacaq? Onların tədris prosesinə qoşulmasına icazə veriləcəkmi?

**Mövzu barədə təhsil eksperti Kamran Əsədov ”Şərq”ə ətraflı danışıb. O qeyd edib ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsinə görə müəllimlərlə bağlanmış əmək müqaviləsinə xitam verilmənin halları var:** ”Amma burda istisna hal mövcuddur. Çünki bilirik ki, yoluxma riski var. Məlumdur ki, 2020-ci ildən etibarən ölkədə pandemiya hökm sürür. Bu təkcə tədris prosesinə yox, insanların gündəlik həyatına bilavasitə təsir göstərib. İstər dövlət, istər hökumət təşkilatları çalışır ki, pandemiyadan az zərərli çıxsın və ”İnsanların sağlamlığı hər bir şeydən önəmlidir” prinsipi həyata keçirilsin. Nəzərə alsaq ki, bu gün Azərbaycan təhsil sistemi öz ətrafında 2 milyon insanı birləşdirir. Onun 150 mini müəllimdir. Hər bir şagird dərsdən sonra evinə gedir. Biz imkan verə bilmərik ki, burda hər hansısa bir yoluxma halı baş versin. Çünki bu, tədris prosesinin normal gedişinə mane ola bilər. Qeyd edim ki, Azərbaycan Respublikasında Əmək Məcəlləsinin tələblərinə görə müəllimlərlə bağlanmış müqavilədə əgər onlar hər hansı ciddi şəkildə yoluxma hallarına yol verərlərsə, yaxud da ki, normal tədrisin axınına mane olarlarsa, bu halda müqavilələrinə xitam verilə bilər. Hətta bununla bağlı İnzibati Xətalar Məcəlləsinə və Cinayət Məcəlləsinə də dəyişiklik edilib. Hesab edirəm ki, burda 2500 müəllimin birbaşa işdən çıxarılmasından söhbət gedə bilməz. Çünki bununla bağlı konkret hal nəzərdə tutulmur. Amma əgər onlar sübut olunsa ki, hər hansı bir konkret virus daşıyıcı və yoluxdurucu şəxs predmetindədirlər, bu zaman bəli, onlarla bağlanmış müqaviləyə xitam verilə bilər. Tövsiyə olunur ki, təhsil sistemində çalışan və səhhətində hər hansı ciddi problem olmayan şəxslər mütləq vaksinasiya prosesində iştirak etsinlər. Bu, tədrisin dayandırılmasının gələcəkdə qarşısını alacaq amildir”.



"Tövsiyə olunur ki, təhsil sistemində çalışan və səhhətində hər hansı ciddi problem olmayan şəxslər mütləq vaksinasiya prosesində iştirak etsinlər"

**K.Əsədov qeyd edib ki, əgər vaksinasiyaya tam şəkildə qoşulmasaq, tədrisin yenidən axını dayana bilər:** ”Ona görə də bütün müəllimlər prosesdə könüllü olaraq iştirak etməlidirlər. Hər kəs normal həyata qayıdış və tədris prosesində iştirak etmək üçün vaksinasiya qoşulmalıdır. Bir məqamı da qeyd edim ki, yaşı 65-dən yuxarı olan müəllimlər birmənalı olaraq siniflərə buraxılmayacaq. Risk qrupunda olan müəllimlərimizin sayı ümumi müəllimlərin 37 faizidir. Onların auditoriyaya buraxılmaması ilə bağlı hələlik hər hansı bir məhdudiyyət yoxdur. Amma növbəti tədris ilində risk qrupu hesab edilən müəllimlər vaksinasiya olunmazlarsa, onların məktəblərdə ənənəvi tədrisi təşkil edilmələrinə birmənalı şəkildə icazə verilməyəcək. Çünki Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Cinayət Məcəlləsinə bu hal əlavə edilib. Ona görə də müəllimlərimizin hər birini vaksinasiya prosesinə könüllü qoşulmağa tövsiyə edirəm. İnanıram ki, onlar normal həyata qayıdış üçün tam şəkildə bu prosesə tam qoşulacaqlar”.

**Aynurə Pənahqızı**

# İlk və son deyil



## Hər dəfə imtahanlardan sonra intiharların şahidi oluruq

"Ailədən, valideynlərdən çox şey asılıdır. Yeniyetmə intihar edirsə, deməli, valideynlə arasındakı psixoloji alyans pozulub, dialoq yoxdur"

"Hər dəfə imtahanlardan sonra intiharlar artır. Bu, valideynlə övladlar arasındakı əlaqə bağlarının itməsinin nəticəsidir". Bu fikirləri "Şərq"ə açıqlamasında psixoloq Fərqanə Mehmanqızı Gəncədə baş vermiş intihar hadisəsinin ehtimal edilən səbəbləri barədə danışarkən deyib.

Xatırladaq ki, Gəncə şəhər Yeni Gəncə yaşayış massivində yerləşən 9 mərtəbəli binanın 7-ci mərtəbəsindən yıxıldığı deyilən gənc qızın intihar etdiyi məlum olub. Hadisə iyun ayının 9-u axşam saatlarında baş verib.

Aparılan araşdırmalar nəticəsində yaşadığı binanın 7-ci mərtəbəsindən yıxıldığı bildirilən 2004-cü il təvəllüdlü Şəms Eşqin qızı Hüseynovanın intihar etdiyi məlum olub. Baş vermiş hadisə ilə bağlı Gəncə şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi açılıb. Qeyd edilir ki, gənc qız ağır halda Gəncə şəhər Təcili Tibbi Yardım Xəstəxanasına yerləşdirilib. Lakin onun həyatını xilas etmək mümkün olmayıb. Hadisə baş verən ərazidə yaşayanların bildirdiyinə görə, intihar edən qız 11-ci sinif şagirdi olub. O, dərs kitablarını da pəncərədən atıb. İntiharın dəqiq başvermə səbəbləri isə hələ ki, məlum deyil.

**Psixoloq Fərqanə Mehmanqızı hesab edir ki, yeniyetmələrlə ehtiyatlı davranmağı valideynlərə daim tövsiyə edirlər:**

- Biz əvvəllər də bu kimi hallar barədə danışarkən valideynlərin yeniyetmələrlə ehtiyatlı davranmalı olduğunu bildirmişik. Xüsusən yeniyetmələr üçün gərgin olan imtahanlar müddətində. Buraxılış imtahanları, qəbul imtahanları ərəfəsi, eləcə də imtahanlardan sonra, balların açıqlandığı müddət yeniyetmələr, məzunlar üçün çox gərgin bir dövrdür. Yeniyetməni düşündürən və psixoloji gərginliyə salan "görəsən, orta məktəbi necə bitirmişəm, hansı səviyyədə, ali məktəbə qəbul oluna biləcəyəmmi, nə qədər bal toplayacam" kimi cavabını axtardığı suallardır. Gərginlik pik səviyyədə olur. Belə şəraitdə intiharların baş verməsi gözləniləndir. Təəssüf ki, hər dəfə imtahanlardan sonra biz belə faciələrin şahidi oluruq. Bunun ilk və son olmayacağı bəllidir. Ailədən, valideynlərdən çox şey asılıdır. Yeniyetmə intihar edirsə, deməli, valideynlə arasındakı psixoloji alyans pozulub, dialoq yoxdur. Valideynlə övlad arasında mənəvi əlaqə qırıqlığı var. Harmoniya yoxdur. Psixoloji alyans doğru istiqamətdə getmir. Ona görə də eyni fakt, eyni səbəblər və sonda intihar. Valideynlərlə danışarkən onlara tövsiyə edirik ki, övladlarınızda aranızda harmoniya yaratmağa çalışın. Onlarla əmr formasında danışmayın. Onları başa salmaq üçün müxtəlif əhvalatlara, hadisələrə istinad edin. Bunları özünüz istədiyiniz formada deyil, onların istədiyi, qəbul edəcəyi formada anlatmağa çalışın. Valideynlə övlad arasında münasibətlər normal olarsa, belə faciələrin qarşısı da alınar. Övladlarımızı itirmərik.

**Mələhət Rzayeva**

## Aktrisa gileyləndi

"Bizdə çəkisi çox olan xanımlar ailə qura bilmir"



**Aktrisa Xuraman Əlizadə ailəsi ilə bağlı açıqlama verib.**

"Xəbər-ətər" verilişinin qonağı olan sənətçi "Niyə ailə həyatınız, həyat yoldaşınız bu qədər maraqlıdır" sualına belə cavab verib:

"Romantik insan deyiləm, realistəm. Nə var odur. Yoldaşım Xuraman desin, sevsin bəsdir. Ərim qısqanc deyil, ətrafım bilir. Amma müəyyən məqamlar olur ki, qısqanır. Mənim ailəm niyə maraqlıdır bilmirəm. Bunu bir dəfə də demişəm, bəlkə də çəkimə görədir. Bizdə çəkili olan xanımlar ailə qura bilmir. Qarşı tərəf deyir ki, gedib 150 kiloqramlıq qız alım?".

## Bu il birinci sinfə gedəcək uşaqların sayı açıqlanıb



**2020-2021-ci tədris ilində respublikanın ümumtəhsil məktəblərinin IX siniflərini 131 227 nəfər, XI siniflərini 84 069 nəfər şagird bitirəcək.**

Bu barədə Təhsil Nazirliyindən məlumat verilib.

IX sinfi bitirənlərdən 60 403 nəfəri qız, 70 824 nəfəri oğlan, XI sinfi bitirənlərdən 38 461 nəfəri qız, 45 608 nəfəri oğlandır.

2020-2021-ci tədris ilində respublika üzrə ümumtəhsil məktəbində fəaliyyət göstərən 6 110 məktəbəhazırlıq qrupunu 106 580 nəfər uşaq başa vurub.

2021-2022-ci tədris ilində respublika üzrə 158 608 uşağın I sinifdə təhsil alacağı proqnozlaşdırılır.

## Mikayıl Müşfiqə aid olduğu bildirilən qalıqlarla bağlı araşdırmaya fasilə verilib



**"Mikayıl Müşfiqə aid olduğu bildirilən, o cümlədən həmin ərazidən tapılan digər qalıqlarla bağlı araşdırmaya xitam verilməyib".**

Bunu APA-ya açıqlamasında Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin sədri Ədalət Həsənov Mikayıl Müşfiqə aid olduğu iddia edilən qalıqların ekspertizası haqqında danışarkən deyib. O, bildirib ki, müharibə və pandemiya səbəbindən bir müddət ekspertiza işlərinə fasilə verilib: "Ona görə də hazırda bu işlə bağlı hər hansı yenilik yoxdur".

*Qeyd edək ki, Stalin repressiyasının qurbanı olmuş, 1938-ci ildə güllələnmiş şair Mikayıl Müşfiqin qalıqlarının tapılması ilə bağlı kütləvi informasiya vasitələrində məlumatlar yayıldıqdan sonra Prezident İlham Əliyev məsələnin araşdırılması üçün Milli Elmlər Akademiyası, Səhiyyə, Mədəniyyət nazirlikləri və digər əlaqədar qurumların nümayəndələrindən ibarət işçi qrupun yaradılması barədə göstəriş verib. Tapşırığa əsasən, Mikayıl Müşfiqə aid olduğu ehtimal edilən qalıqlar müvafiq qaydada DNK ekspertizasından keçirilir. Əgər qalıqların həqiqətən ona məxsus olduğu təsdiqini taparsa, şairin yenidən dəfn olunması ilə bağlı zəruri tədbirlərin görülməsi nəzərdə tutulur.*

# AVRO-2020 ilə əlaqədar iki nazirlik gücləndirilmiş iş rejiminə keçdi

## İnternet, mobil rabitə xidmətləri keyfiyyətli və davamlı şəkildə təmin ediləcək



Bakıda keçiriləcək futbol üzrə Avropa çempionatı (AVRO-2020) ərəfəsində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (NRYTN) üzərinə düşən öhdəlikləri icra edib, müvafiq test işləri yekunlaşdırılıb.

Bu barədə "Şərq"ə Nazirlikdən məlumat verilib.

Məlumata görə, artıq oyunlar zamanı nəqliyyat, telekommunikasiya və poçt xidmətlərinin yüksək səviyyədə təşkilinə dair hazırlıq başa çatıb. Oyunların keçiriləcəyi günlərdə poçt, telekommunikasiya, o cümlədən internet, mobil rabitə xidmətləri keyfiyyətli və davamlı şəkildə təmin ediləcək.

Nəqliyyat xidmətləri ilə təminat məqsədilə nəqliyyat planı hazırlanıb. Eyni zamanda nazirliyə məxsus "Bakı Taksi Xidməti" MMC tələbata uyğun olaraq taksi xidməti təşkil edəcək.

Oyun günlərində müvafiq öhdəliklərin icrası nəzarətdə saxlanılacaq.

Fövqəladə Hallar Nazirliyi (FHN) də gücləndirilmiş iş rejiminə keçib.

Nazirlikdən bildirilib ki, qarşıdan gələn həftələrdə UEFA Avropa Çempionatının bir neçə oyunu Bakı şəhərində keçiriləcək.

Bununla əlaqədar olaraq fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun imzaladığı əmrə əsasən Nazirlikdə Qərargah yaradılıb.

*Qeyd olunub ki, həmçinin, oyunlarla bağlı bir sıra yerlərdə, o cümlədən Bakı Olimpiya Stadionu, Dalğa Arena, Bakcell Arena, Tofiq Bəhramov adına Respublika Stadionu və qonaqların qalacağı otellərdə aidiyyəti təhlükəsizlik tədbirlərinə nəzarət edilməsi məqsədilə Nazirliyin əlaqədar qurumlarına müvafiq tapşırıqlar verilib, təhlükəsizlik müayinələri keçirilib, maarifləndirmə işləri aparılıb.*

*Bildirilib ki, bundan əlavə, baş verə biləcək fövqəladə hadisələrə çevik reaksiya verilməsi, onların mümkün nəticələrinin operativ şəkildə aradan qaldırılmasının təmin edilməsi məqsədilə Nazirliyin aidiyyəti struktur bölmə və qurumlarına müvafiq tapşırıqlar verilib.*

**Yeganə**

# "Heç olmasa şəhid jurnalistlərimizdən utanın!"



*Xanım jurnalist Manaf Ağayevlə, Cavanşir Məmmədova dərs keçdi*

ARB TV-nin "Həmin Zaur" proqramında jurnalistlərə qarşı hörmətsizlik olub. Buna səbəb verilişin qonaqları müğənnilər Cavanşir Məmmədov və Manaf Ağayevin açıqlamaları olub. Aparıcı Zaur Kamal onlardan jurnalistlərlə münasibətlərinin necə olduğunu soruşub.

C.Məmmədov ən çox əsəbiləşdiyi media nümayəndələri olduğunu söyləyib. O həmçinin "Onlar yazmasalar, dayana bilmirlər axı... Jurnalistlərə mövzunu biz veririk" deyə qeyd edib.

Xüsusilə də Manaf Ağayevin sözləri ictimaiyyətdə qəzəb doğurub. İfaçı bunları deyib: "Onlardan adama dost olar?! Son 3-5 ildə kiminsə haqqında bir tərif yazdıqlarını görmüsünüz?".

M.Ağayevlə C.Məmmədovun açıqlamalarını önəmsəməmək olar. Zatən jurnalistlərin də bu "dostluğ"a ehtiyacı yoxdur. Lakin xoş olmayan bir məqam var. Sanki sualı ünvanlayan və jurnalistlərin pislənməsinə göz yumanlar başqa peşənin sahibləridir. Elə efirdə bizə vurulan baltanın sapı özümüzdəndir.

Bu üzdən də verilişin həmin bölümü sosial şəbəkələrdə xoş qarşılanmayıb.

"Sənət üçün hansı gözəl layihələr edib ki, tərif də istəyirlər? Toy oxuyub pul qazanmaqdan başqa nə etmisiz ki, jurnalistdən bir alqış da istəyirsiz?"

**Mədəniyyət yazarı Könül İbrahim də feysbuk profilində mövzuya münasibət bildirib. "Şərq" xəbər verir ki, həmkarımız mövzu haqda bunları yazıb:** "Yüzlərlə jurnalisti olan bir telekanalda niyə jurnalistlər pislənir ki? Bu nəyin "kafası"dır? Son illər verilişlərdə tanınan, tanınmayan simaların jurnalistləri tənqid etməsi dəbdir. Başa düşmürəm, bu telekanallarda çalışanlar jurnalist deyil? Yoxsa jurnalist olaraq yalnız qələm əhlini, portallarda çalışanları və qəzetçiləri nəzərdə tuturlar?

Cavanşir Məmmədov və Manaf Ağayev sənət üçün hansı gözəl layihələr edib ki, tərif də istəyirlər? Toy oxuyub pul qazanmaqdan başqa nə etmisiz ki, jurnalistdən bir alqış da istəyirsiz?

Sizi də qınamıram. O qədər üzümüzü qara edən "həmkarlar" puldan ötrü əlinizdə oyuncaq olub ki, elə bilirsiniz ki, jurnalistlərə hörmət etmək lazım deyil. Bilin ki, jurnalistlərin də sənətinə və cəmiyyətdəki mövqeyinə görə hörmət etdiyi, bəzən tərif yağdırdığı həmkarlarınız olur. Düzə düz, səhvə səhv, yaxşıya yaxşı, pisə pis deyəcək jurnalistlərimiz var. Çox şükür. Bir həftə deyil ki, iki jurnalist həmkarımızı şəhid verdik. Heç olmasa, o şəhidlərdən utanın. Zaur Kamal, manıslara jurnalistləri müzakirə etdirməkdənsə, şəhid jurnalistlərimizdən danışın. Siracın, Məhərrəmin şəkillərini ekrana gətirin, soruşun görək eqosu yerə-göyə sığmayan müğənnilərimiz qəhrəman həmkarlarımızı tanıyırlarmı?

Bu vəsilə ilə bilməyən də bilsin, öyrənsin, qəhrəman övladlarımızı tanısın. Daha şou, qalmaqal, söydü, vurdu qaçdı dövrü deyil. Birlik zamanıdır.

Sizdən çox rica edirəm, arada açıb bir-iki qəzet oxuyun, sanballı xəbər agentliyinə göz atın. Jurnalistika instaqram səhifələrindən ibarət deyil. Bilginizə..."

**Samirə Ərəblinski**

# Mədəniyyət naziri müjdəni verdi

*"Çıraqqala"nın YUNESKO-nun Ümumdünya Mədəni İrs Siyahısına daxil edilməsi gözlənilir*



"Çıraqqala" tarixi abidəsinin beynəlxalq səviyyədə təbliği ilə bağlı planlarımız var". Bunu jurnalistlərə açıqlamasında mədəniyyət naziri Anar Kərimov deyib. O bildirib ki, abidənin və istehkam yerlərinin YUNESKO-nun Ümumdünya Mədəni İrs Siyahısına daxil edilməsi gözlənilir:

Şabran rayonunda yerləşən "Çıraqqala" abidəsində aparılan bərpa-konservasiya işləri ilə tanışlıq məqsədilə Mədəniyyət Nazirliyinin nümayəndələri əraziyə baxış keçiriblər.

Dünya əhəmiyyətli tarix və mədəniyyət abidəsində möhkəmləndirmə, bərpa-konservasiya işləri Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən aparılır.

2019-cu ilin iyul ayından başlanan bərpa-konservasiya işləri nəticəsində tarixi abidəni ziyarət edənlərin rahatlığını təmin etmək məqsədilə ərazidə yerləşən meşənin içindən qalayadək eni 2 metr, uzunluğu 530 metr olan yol salınıb, tam yararsız vəziyyətə düşmüş körpü qaya daşları ilə bərpa olunub, sıldırım qayalar üzərində qala ətrafı ayaqaltılar quraşdırılıb, baş bürcün dağılmış hissələri bərpa olunub, körpü ilə qala arasında qayalar üzərində yol çəkilib və taxtadan asma pillələr düzəldilib.

## "Çıraqqala"nın tarixi

*Qeyd edək ki, Gilgilçay müdafiə səddi Xəzər dənizindən başlayaraq Böyük Qafqaz sıra dağlarının dərinliklərinə qədər, 120-130 km uzunluğunda böyük bir ərazini əhatə edir. Səddin baş tikilisi Şabran rayonu ərazisində yerləşən "Çıraqqala" abidəsi V-VI əsrlərdə inşa edilib.*

*Tarixi abidə möhtəşəm görünüşü və tikinti xüsusiyyətləri ilə inşa edildiyi ərazidə dominant rol oynayaraq, yerləşdiyi məkanın simvoluna çevrilib. Təqribən 2 hektarlıq ərazini əhatə edən "Çıraqqala" mərkəzi qala da daxil olmaqla 17 bürcdən ibarət düzbucaqlı formadadır. Qala və qoruyucu divarların iri miqyasları, onların uzun müddətdə, çoxsaylı insan əməyi ilə ərsəyə gəldiyindən xəbər verir.*

*"Çıraqqala" müdafiə kompleksinin divarları böyük həcmli daş hörgüdən ibarət olub. Qalanın baş bürcü qaya üzərində yerləşməyinə baxmayaraq, qaya ilə hörgünün birləşdiyi yerdə hörgüdə böyük aşınma və dağıntılar baş verib. Digər bürc və divarlarda da vəziyyət ürək açan olmayıb, qalanın salamat qalan yerlərinin üzlük hörgü hissələrində dağıntılar əmələ gəlib. Hazırda bərpa-konservasiya işlərinin davam etdiyi "Çıraqqala" abidəsində həyata keçirilən işlər mühüm əhəmiyyət kəsb edir. Bu həm tarixi dəyər baxımından, həm də əraziyə turist səfərlərinin artması baxımından çox önəmlidir.*

## "Bahalı geyinməyəndə deyirlər ki, xəsisdir"

Afət Fərmanqızı dəbdən danışıb



**"Evdəkilərə salam" proqramı növbəti dəfə müğənni Afət Fərmanqızının evində qonaq olub.**

"Şərq" xəbər verir ki, o, paltarlara çox pul xərclədiyini söyləyib:

"Bu ayaqqabım hədiyyədir və qiyməti 3500 manatdır. Mütləq brend olmalıdır deyə düşünmürəm. Lakin geyinməyəndə söyləyirlər ki, xəsisdir. Məcbur almalı oluruq. Paltarı 1200-ə almışam. Çox da baha deyil. Orta əmək haqqı ilə dolanan adam üçün bahadır. Amma biz məclislərdə çıxış edib pul qazanırıq. Müğənni gəliri ilə baxanda normaldır. Ayaqqabı, çantada mütləq brendə üstünlük verirəm. Vallah, boş şeylərdir. Pulunuzu belə mənasız şeylərə verməyin".

**Samirə**

## Əvvəl müğənni olmaq istəyib

Pərvin Aygün Kazımovanın heyranıdır



**Pərvin Abıyeva "Baku TV"yə bir sıra açıqlamalar verib.**

"Şərq"in məlumatına görə o, Xalq artisti Aygün Kazımovanın heyranı olduğunu söyləyib: "Mən sənətdə arzularıma çatmışam. A.Kazımovanın fanatı olmuşam. Bunu demək düz çıxmaz. Lakin aramızda çox yaş fərqi var. Onun mahnıları ilə böyümüşəm. Onu izləyərkən səhnəni arzulayırdım. Əvvəl müğənni olmaq istəyirdim. Sonradan fikrimi dəyişdim".

**Samirə**

## "Pis işlərlə məşğul olanlara rəhmət düşmür"

Klarnet ifaçısının açıqlamaları sərt olub



**Klarnet ifaçısı Hüseyn Məhəmmədoğlu "Həmin Zaur" proqramındakı açıqlaması ilə diqqət çəkib.**

"Şərq" xəbər verir ki, o, verilişdə bunları söyləyib: "Allah həqiqi sənətkarlarımızı qorusun. Məsələn, deyirlər, filankəs öldü. Niyə? Hansısa pis işlərlə məşğul olub. Ona rəhmət düşür? Düşmür. Görürsən ki, lazımsız şeylərə görə dünyasını dəyişir. Ölsün də. Neyniyim? Etməzdi, yaşayardı..."

**Samirə**

## Manaf Ağayev Zaur Kamala sürücüsü olmağı təklif edib



**Ötən gün "Həmin Zaur" proqramında Manaf Ağayevin lüks avtomobili müzakirə olunub.**

**"Şərq" xəbər verir ki, M.Ağayev bir vaxt Zaur Kamala sürücüsü olmasını təklif etdiyini söyləyib:** "İşdən çıxmışdın, sənə zəng etdim ki, gəl, mənim sürücüm ol. Səni ac qoymaq istəmirdim. Söylədim ki gəl, şoferlik et. İrəli gedərdin, hörmət edərdim".

Bu zaman aparıcı maşının çox bahalı olduğunu iddia edib. O, həmin avtomobilin çox adamda olduğunu söyləyib. Verilişin digər qonağı Cavanşir Məmmədov isə mövzu haqda bunları deyib: "Maybach" markalı avtomobildir. Amma qiyməti demək ayıbdır. Ümumiyyətlə mən sənət adamlarının imkanı olanda fəxr edirəm".

**Samirə**

# TƏKRAR HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 05.05.2021-ci il tarixli, 15-2B-6117 saylı sifarişi ilə, ipoteka predmeti olan, 1999-cu il buraxılışlı "Opel Zafira" minik markalı, 90-KC-258 dövlət qeydiyyat nişanlı avtomobil (rəngi tünd boz met., mühərrik həcmi 1800 sm3) avtomobilə dair 09 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin avtomobil ilkin satış qiyməti olan 7.500 (yeddi min beş yüz) manatdan 15% aşağı olmaqla, yəni 6.375 (altı min üç yüz yetmiş beş) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 06 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 319 (üç yüz on doqquz) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) saat qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 3%-dən artıq olmamaqla.

*(Əlavə olaraq "Qeyd"ə bax).*

---

Şəmkir rayon İcra Şöbəsinin 03.05.2021-ci il tarixli, 34081/2019-12 saylı sifarişi ilə Şəmkir rayonu, Təzəkənd kəndində yerləşən 0,06 ha torpaq sahəsinə dair 09 iyun 2021-ci il, saat 11:00-a (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin torpaq sahəsi ilkin satış qiyməti olan 6.000 (altı min) manatdan 10% aşağı olmaqla, yəni 5.400 (beş min dörd yüz) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 25 iyun 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 10%-i, yəni 510 (beş yüz on) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) saat qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən artıq olmamaqla.

*(Əlavə olaraq "Qeyd"ə bax).*

---

Şəmkir rayon İcra Şöbəsinin 07.04.2021-ci il tarixli, 2261/2014-121634/21 saylı sifarişi ilə, Şəmkir şəhərində yerləşən 0,06 ha torpaq sahəsinə dair 10 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin torpaq sahəsi ilkin satış qiyməti olan 9.000 (doqquz min) manatdan 10% aşağı olmaqla, yəni 8.100 (səkkiz min yüz) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 25 iyun 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 10%-i, yəni 765 (yeddi yüz altmış beş) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) saat qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən artıq olmamaqla.

*(Əlavə olaraq "Qeyd"ə bax).*

---

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 07.05.2021-ci il tarixli, 6220-60747/21-15-19 saylı sifarişi ilə, ipoteka predmeti olan Bakı şəhəri, Nərimanov rayonu, H.Mirzəyev küçəsi, dalan 2 ünvanında yerləşən 8 saylı fərdi yaşayış evinə dair 09 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin fərdi yaşayış evi ilkin satış qiyməti olan 190.000 (bir yüz doxsan min) manatdan 15% aşağı olmaqla, yəni 161.500 (bir yüz altmış bir min beş yüz) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 06 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 8075 (səkkiz min yetmiş beş) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) saat qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 3%-dən artıq olmamaqla.

*(Əlavə olaraq "Qeyd"ə bax).*

---

Bakı şəhəri Suraxanı rayon İcra Şöbəsinin 07.05.2021-ci il tarixli, 18-100658 saylı sifarişi ilə, ipoteka predmeti olan 2007-ci il buraxılışlı "VOLVO XC-90" markalı, 90-HK-499 dövlət qeydiyyat nişanlı (mühərrik həcmi 3200 sm3, ağ mirvari rəngli) avtomobilə dair 10 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin avtomobil ilkin satış qiyməti olan 12.000 (on iki min) manatdan 15% aşağı olmaqla, yəni 10.200 (on min iki yüz) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 06 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 510 (beş yüz on) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) saat qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 3%-dən artıq olmamaqla.

*(Əlavə olaraq "Qeyd"ə bax) .*

---

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) saat qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

5) Torpaq sahələri hərracı üzrə xarici, hüquqi və fiziki şəxslər hərraca buraxılmırlar;

6) Hərracın iştirakçılarına onların hərracda iştirakı statusunu əldə etməsini müəyyənləşdirən bilet verilir;

7) şəxs hərracda iştirak etmək üçün ərizənin qəbulu başa çatanadək təşkilatçıya yazılı formada müraciət etməklə, öz ərizəsini geri götürə bilər;

8) Ərizənin geri götürülməsi hərracın şərtlərinə uyğun olduqda, ödənilmiş beş məbləği 2 (iki) iş günü ərzində geri qaytarılır.

9) Hərracda iştirak edən, lakin onu udmayan şəxslərin behi 5 (beş) iş günü müddətində geri qaytarılır;

10) İpoteka predmetləri üzrə hərrac baş tutmadıqda, habelə keçirilməsindən imtina edildikdə hərracın təşkilatçısı tərəfindən beh məbləği 7 (yeddi) təqvim günü müddətində geri qaytarılır;

11) Hərracda iştirak etmək hüququ əldə etmiş şəxslərə "sifarişçi" və (ya) "təşkilatçı" tərəfindən satışa çıxarılan əmlakla tanış olmaq imkanı yaradılır;

12) Qalib gəlmiş şəxs qanunvericiliyə uyğun tərtib edilmiş protokolu hər hansı üzürlü səbəbi olmadan imzaladıqda, yaxud əmlakın dəyərini ödəməkdən imtina etdikdə verilən beh geri qaytarılmır. Hərracın qalibi hərracın yekunları barədə protokolun tərtib edildiyi vaxtdan ən geci 3 (üç) iş günü ərzində ödəməli olduğu pul vəsaitini "sifarişçi" icra qurumunun depozit hesabına köçürməlidir.

**Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC**

**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**

**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com**

**rəsmi internet saytı: e-herrac.com**

---

**Məlumat**

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 07.05.2021-ci il tarixli, 6348-119976/16-15-5 saylı sifarişi üzrə, ipoteka predmeti olan, "Kia Optima" minik markalı, 2012-cil il buraxılışlı, ağ mirvari rəngli, 90VM-121 dövlət qeydiyyat nişanlı avtomobilə dair 11 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş açıq hərracın iştirakçısı olmadığından hərrac baş tutmamışdır.

***"Əmlak Hərrac Mərkəzi" MMC***

**Məlumat**

Sumqayıt şəhəri üzrə İcra İdarəsinin 12.04.2021-ci il tarixli, 47/35 saylı sifarişi üzrə boyunbağı-kulonlar 1 ədəd (əzik) 585 əyar, çəkisi 7.6 və komplekt 1 ədəd (əzik) 583 əyar, çəkisi 11.8 olan qızıl-zinət əşyalarına dair 11 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş açıq hərracın iştirakçısı olmadığından hərrac baş tutmamışdır.

***"Əmlak Hərrac Mərkəzi" MMC***

**Məlumat**

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 30.04.2021-ci il tarixli, 5975-55704/19-15-26 saylı sifarişi üzrə, Bərdə rayonu, Otuzikilər kəndində ümumi sahəsi 2.19 ha olan torpaq sahəsi, Xaçmaz rayonu, Canaxır kəndində yerləşən 0.5850 ha torpaq sahəsi və Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən Bərdə rayonu, Otuzikilər kəndində, yaşayış məntəqələrinin torpaqları təyinatlı 0.3000 ha torpaq sahəsinə dair 11 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş açıq hərracın iştirakçısı olmadığından hərrac baş tutmamışdır.

***"Əmlak Hərrac Mərkəzi" MMC***

---

**"Magistral Ekspress" ATSC**

Ziya Bünyadov Prospekti, 2113-cü məhəllə

Məlumat üçün bildiririk ki, 15.07.2021-ci il tarixində saat 09:00-da Ziya Bünyadov Prospekti 2113 ünvanında səhmdarların növbəti ümumi yığıncağı keçiriləcək.

Səhmdarların ümumi yığıncağında iştirak etmək üçün səhmlərə mülkiyyət hüququnu təsdiq edən reyestrdən çıxarışın əslini, səhmdarları təmsil edən şəxslər isə reyestrdən çıxarışın əslini və etibarnamənin əslini mütləq təsdiq etməlidir.

İclasın gündəliyi

1) "Magistral Ekspress" ATSC 2019 və 2020-ci ilin maliyyə hesabatlarının müzakirəsi;

2) "Magistral Ekspress" ATSC Direktorları şurasının (müşahidə şurası) üzvülərinin seçilməsi;

3) "Magistral Ekspress" ATSC-nin idarə Heyyəti üzvlərinin seçilməsi;

4) Digər məsələlər.

---


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: **Akif Aşırlı**

Baş redaktorun ı müavini: **Yusif Nəzərli**

Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı

**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535 **www.sherg.az** e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı. **Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**

SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111 Kod 200112 M/H AZ37NABZ01350100000000001944

VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1049



# İndi də "meymun çiçəyi" virusu gəlir

## İlkin simptomları dəhşət doğurur

**Böyük Britaniyada ölkə xaricindən gələn iki nəfərdə "meymun çiçəyi" (Monkeypox) aşkarlanıb.**

Medicina.az xəbər verir ki, rəsmi səlahiyyətlilər ölkədə ölümcül virusun iki nəfərdə aşkarlandığını təsdiqləyiblər. "Meymun çiçəyi" daha çox Mərkəzi və Qərbi Afrikada müşahidə olunur. Ancaq İngiltərə səlahiyyətliləri xəstələrin kimliyi və hansı ölkədən gəldikləri barədə məlumat verməyiblər. Xəstələrin may ayının ilk həftələrindən etibarən yoluxduqları və İngiltərəyə döndükləri zaman pandemiya məhdudiyyətləri altında karantinə alındıqları açıqlanıb.

Ölkənin səhiyyə naziri vəziyyəti "tamamilə normal" olaraq xarakterizə edib və hər zaman bu cür epidemiyalarla qarşılaşdığını bildirib.

# 1 ton 150 kiloqramdır

## Buğa qurban bayramı ərəfəsində avtomobil qiymətinə satışa çıxarılıb



**Bursada 1 ton 150 kiloqramlıq buğa qurban bayramı ərəfəsində avtomobil qiymətinə satışa çıxarılıb.**

Milli.Az haberler.com-a istinadən xəbər verir ki, gündə 15 kilo yem yeyən qurbanlıq heyvana görə 50 min lirə istənilir. Nilüfer rayonunda fəaliyyət göstərən Uluabat Təsərrüfatı tərəfindən satışa çıxarılan buğa hər kəsi qorxuya salır. Sahibi 26 ay ərzində onu bəsləyib. Ağırlığından hətta çıxdığı tərəzini belə qırıb.

# 20 milyon qiymət qoyuldu

## Xomeyninin qaldığı ev inanılmaz qiymətə satışa çıxarıldı



**İranın keçmiş dini lideri ayətullah Xomeyninin 1964-cü ildə Bursada qaldığı ev 20 milyon lirəyə satışa çıxarılıb.**

Ev sahibləri, 754 kvadrat metrlik evin xüsusi dəyəri olduğu üçün İran rəhbərliyinə satmaq istəyir. Milli.Az türk mediasına istinadən xəbər verir ki, Xomeyni 1962-1963-cü illərdə şahın hakimiyyəti dövründə həbs olunub. Sonra 4 noyabr 1964-cü ildə Türkiyəyə sürgün edilib. İlk dəfə Ankaraya gətirilən Xomeyni bir müddət orada qaldıqdan sonra Bursaya aparılıb. Mülk sahibi Eroğlu Xomeyninin təxminən 6-7 ay burada qaldığını deyib. "İranın 6-cı prezidenti Mahmud Əhmədinejad da buranı ziyarət edib. Onu satıb satmayacağımızı soruşmuşdu. O dövrdə satmağı düşünmürdük. İndi isə satırıq" deyib.

# Xəstənin qarnında tibb mala unudulub



**İstanbulda qarın ağrısı şikayəti ilə müraciət etdiyi xəstəxanada dalaq əməliyyatı etdirən Fatma Soylunun başına inanılmaz hadisə gəlib.**

Milli.Az haberler.com-a istinadən xəbər verir ki, 41 yaşlı qadın 6 il əvvəl qarın ağrısı səbəbiylə xəstəxanaya gedib. Orada da dalağının partladığından əməliyyat olunub və 3 gün sonra evə buraxılıb. Lakin şiddətli ağrısı olan və yeriyə bilməyən Fatma yenidən xəstəxanaya yollanıb. Həkimlər əməliyyatdan sonrakı ağrının normal olduğunu söyləyərək onu geri qaytarıblar.

Başqa yerdə müayinə olunarkən bəlli olub ki, Soylunun qarnında tibb mala unudulub. Bu səbəbdən də xəstəxananı və əməliyyatı həyata keçirən qrupu məhkəməyə verib. Məhkəmə xəstəxananı günahkar çıxarıb və zərər çəkmiş vətəndaşa 82 min 71 lirə ödənilməsinə qərar verib.



# Dünyanın ən quraqlıq yeri

## NASA-nın təcrübə məkanı buradır



**Atakama gölü Sakit okeanın qərbindəki Çilidədir və dünyanın ən quraqlıq və isti bölgəsi olmaqla məşhurdur. Atakama gölünə 400 il yağış yağmayıb.**

400 illik quraqlıqdan sonra bu əraziyə 1971-ci ildə yağış yağıb. Qızıl, gümüş, mis, mədən duzu ehtiyatları və bir çox mineralların yatağı olan göl ölkə iqtisadyyatına önəmli gəlir gətirir. Dünyadakı ən qədim mumiya mədəniyyəti də bu bölgədə yaşamış Chinchorrolara aiddir. Bölgədə yaşı 7 min il olan uşaq mumiyalarına rast gəlinir. Atakama gölünün 15 milyon yaşı olduğu bilinir. Bölgədə gümüş ehtyatlarının tapılması ilə bura Çili və Boliviya arasında qanlı savaş meydanına dönüb. 1879-1884-cü illərdə 2 ölkə arasında baş vermiş müharibədə Çili qalib gəlib və ərazilərini cənuba doğru genişləndirib.



Atakama gölündə böyük kosmik müşahidə evi fəaliyyətdədir. NASA hər cür təcrübələrini məhz bu bölgədə həyata keçirir. Ucsuz-bucaqsız göl həm də bu özəlliyi ilə seçlir. Atakama coğrafiyasının Mars planetinə bənzəməsi buranı elmi araşdırmalar üçün cəlbedici məkana çevirib. NASA kosmosa hər səfəri məhz buradan başlayır. Məsələn, Marsa göndəriləcək kosmik aparat Atakama gölündə təcrübədən keçirilib, müsbət rəy aldıqdan sonra uçuşa icazə verilib. Atakama gölü dünyada turistlərin diqqətini çəkən məkanlardan biridir və pandemiyadan əvvəl hər il minlərlə insan buranı ziyarət edirdi. Bu quraqlıq bölgədə təbiətin yaratdığı nəhəng abidələr insanları heyrətə salır.

**Məlahət**

# Gürcü milyonçunun gözü doymur

## Birdən-birə 20 uşağın sahibi olublar





**Gürcü milyonçu Qalip Özturk və rusiyalı arvadı Kristina Özturkun 30 uşağı var. Onlar ötən 4 ildə birdən-birə 20 uşağın sahibi olublar.**

Kristina etiraf edir ki, o uşaqlardan cəmi birini təbii hamiləliklə özü doğub. Qalan uşaqlar surroqat analardan dünyaya gəlib.

Medicina.az xəbər verir ki, Batumidə yaşayan cütlüyün arzusu 100 uşaq sahibi olmaqdır. Biznesmenin 30 övladından 10-u əvvəlki arvadı ilə nikahından olub və həmin uşaqların bioloji anası həmin qadındır.

İndi rusiyalı gənc qızla evil olan milyonçu bu arvadından 20 uşaq sahibidir. Uşaqların çoxu Ukraynada süni mayalanma mərkəzində surroqat analardan doğulub. Ukraynada xarici vətəndaşlar üçün belə tibbi xidmət var. Bir uşağın surroqat anadan dünyaya gəlməsi 12-15 min dollara başa gəlir. Cütlük uşaqlara müxtəlif millətlərin adlarından qoyub: Marina, Fatima, İzabella, Hüseyn, Artur və s. Gənc ananın cəmi 23 yaşı var. Körpələrə 16 dayə xidmət edir. Bu dəfəki uşaqların atalarına daha çox oxşadığı bildirilir.

Onların sözlərinə görə yaxın 1-2 ildə daha 20 uşaq dünyaya gətiriləcək. Artıq hazırlıqlar gedir.



# "Sevgidən doymadıq"

## İstirahət fotolarını paylaşdılar

**Məşhur aranjımançı Ozan Doğulu, təxminən üç ildir sevgili olduğu Hera Aslanla Bodrumda tətil kefini çıxarır.**

Milli.Az haberutrk-ə istinadən xəbər verir ki, mövsümü açan cütlük dəniz və günəşin dadını çıxarır. "Sevgidən doymadıq" deyə sevgililər bildirib.